İRFAN

№ 74 Yanvar 2013 İctimai fikir jurnalı 3 AZN

CƏHALƏTİN NƏTİCƏSİ

XURAFAT

Redaktordan

İRFAN
Yanvar/2013/№:74
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2013 © All Rights Reserved
Created and supported by "irfan"

Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işləri:
Tel: 050 379 01 79

Şikayət və təkliflərniz üçün
bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Əziz Oxucu!

Yeni ilin ilk ayında xoş gördük sizləri! Yeni ildə yeni uğurlar və nailiyyətlər arzulayırıq hər birinizə. 2005-ci ildən çıxdığımız yolda addım-addım irəliləyərək jurnalımızın 9-cu ilinə qədəm qoyduq. Bu yolda bizimlə olan hər kəsə təşəkkür edirik. Hələ İrfan ailəsinə qoşulmayanlar üçün Abunə Kampaniyası fürsəti davam edir. 2013-cü ildə hər ay evinizdə bir-birindən maraqlı jurnalların olmasını istəyirsinizsə, bu imkanı dəyərləndirin. Üstəlik 895 səhifəlik "Peyğəmbərlər tarixi" kitabını əldə edin. Təbii ki, yanındakı digər hədiyyələrlə.

Əziz Oxucu!

Jurnalımızın bu sayında sizdən gələn təklifləri də dəyərləndirərək ana mövzumuzu "Xürafələr"ə həsr etdik. İnsanın inanc sistemini dərindən sarsıdan və yanlış əqidələrə sürükləyən xürafə və mövhumatlar hər zaman olduğu kimi bu gün də cəmiyyətimizdə aktualdır. Bu kimi yanlış əqidələrə dinimizdin baxışı, onlarla mübarizə üsulları haqda yazmağa qərar verdik. Xürafələrin əslində savadsızlıqdan qaynaqlandığını *"Cəhalətin Meyvəsi"* başlıqlı məqalədə oxuyacaqsınız. *"Mövhumat"* və *"Xürafələrlə Mübarizə"* məqalələri dinimizdə bu kimi adətlərə yer olmadığını bir daha diqqətinizə çatdırır. Yaşadığımız bu günlərdə, küçələrdə gördüyünüz və reklam tabloларında üzünüzə gülən yadelli mədəniyyətlərin "Şaxta Baba"sının da əslində bir növ başqa dinin məhsulu olub mədəniyyətimizə əks olunan xürafə olduğunu *"Mənim Babam Şaxta deyil"* yazısından oxuyacaqsınız. XIX-XX əsr Azərbaycan alimlərindən olan Mir Məhəmməd Kərimin *"Kəşful-Həqaiq"* adlı əsərində yer alan xurafatla bağlı fikirlərini eyniadlı məqalədən daha aydın oxuyacaqsınız. Bu sayımızın *"Ağsaqqal Nəsihəti"* rubrikasında vaxtilə öz dədə-baba yurdundan didərgin düşərək Özbəkistana sürgün edilən, oradan da Azərbaycana gələrək uzun illər burada yaşayan, hal-hazırda isə qardaş Türkiyə vətəndaşı olan ağsaqqal Abdullah Mahmudovdan reportaj aldıq. Yaşadığı ağır həyat hekayəsini öz dilindən oxumanız üçün sizinlə paylaşdıq. Möhtərəm Osman Nuri Topbaşın qələmindən *"Loğman Həkim"* silsilə yazısının bu ay 4-cü bölümünü sizə təqdim edirik. *"Namazın Faydaları"*, *"Bidət"*, *"Allahı Murad Etmək"*, *"Kəlmeyi-Tövhid"*, *"Qızıl Adam"* və s. kimi bir-birindən maraqlı yazıları bəyənərək oxuyacağınızı ümid edirik. Qısa təqdimatdan sonra sizi "İrfan"la baş-başa qoyuruq.

İrfan jurnalı ilk günlərini yaşadığınız yeni ildə sizə müvəffəqiyyətlər arzulayır.

Sorma hər kişinin əslin izzətindən bəllidir
Söhbəti irfan görənlər xidmətindən bəllidir.
Nəsimi

O Gecə
Məmməd MƏMMƏDZADƏ 3

Xürafələrlə Mübarizə
Rüfət ŞİRİNOV 8

Mənim Babam Şaxta (Baba) Deyil
Eldar KƏRİMOV 10

Mövhumat
Müşfiq XƏLİLOV 12

Mir Məhəmməd Kərim Və "Kəşful-Həqaiq" Təfsirində Xurafat
Dr. Əhməd NİYAZOV 14

Qiyamət Xəbərdarlığı
Hazırlayan: Ömər MƏMMƏDOV 20

Bidət
Aqil ƏLİYEV 22

Yeni İl-Köhnə Dərdlər Və Yeni Ümidlər
İlham SOVQATOV 24

Allahı Murad Etmək
Mübariz ƏLİOĞLU 26

Namazın Faydaları
Saleh ŞİRİNOV 36

İman Təzələmə Formulu: Kəlmeyi-Tövhid
Salih Zeki MERİÇ 38

İmam Əzəm-2
İbrahim EROL 40

(Kimdir) Qızıl Adam
Adem ŞAHİN 42

Utanıram
Ramiz MƏMMƏDOV 45

Hədəfin Üçün Də Bir Hədəf Seç: Dnb Ol!
İsmayıl VƏLİYEV 46

Həyat Dəftərindən
Ülvi MƏMMƏDOV 48

Sual Cavab
Anar QURBANOV 50

Hikmət Lövhələri
Kamran MƏMMƏDOV 52

Xəbər 54

CƏHALƏTİN MEYVƏSİ
Nurlan MƏMMƏDZADƏ 4



MÜASİR XÜRAFƏLƏR
Elşən RZAYEV 6

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR
-LOĞMAN HƏKİM عليه السلام- 4
Osman Nuri TOPBAŞ 28

El ağsaqqalı Abdullah MAHMUDOV: Azərbaycanda özümüzü heç vaxt yad hiss etməmişik 15

Məmməd MƏMMƏDZADƏ

O GECƏ

Azərbaycanın mərd oğullarına, balalarına gülləni Rus İmperiyası atdı.

Dünya bizə ağlamadı, çünki bizim Vətəndən başqa dünyamız yox idi.

Bakıdan qaçan ermənilərə ağlayırdı Dünya – Bakıda qalanlara ağlamırdı.

Dünya vicdanını, ləyaqətini itirmişdi.

Dünyanın balalarımıza ağlamağa ləyaqəti çatmadı.

Özümüz ağladıq şəhidlərimizə.

Donmuş torpağı göz yaşlarımızla isladaraq şəhidlərimizə qəbir qazdıq.

Xəzərdəki gəmilərin ardı-arası kəsilməyən fit səsi Bozqurdun ulartısına dönmüşdü o gecə.

O gəcə səsimiz Qaf dağından o tərəfə keçmədi.

O gecə səsimiz Araz sahilindəki tikanlı sərhəd məftillərinə ilişib qaldı.

Xəzərin soyuq, bozarmış sularında boğuldu səsimiz.

Təbrizdən, Heydərbaba dağından ucalan yanıqlı misralar güllə yağışından seyrələ-seyrələ Bakının qan gölməçəli küçələrində dolaşırdı o gecə...

Heydərbaba, göylər qara dumandır
Günlərimiz bir-birindən yamandır.
Yaxşılığı əlimizdən alıblar
Yaxşı bizi yaman günə salıblar.

Bakı küçələrində bir şir darda qalıb bağırır, mürüvvətsiz insanları çağırırdı o gecə.

Amma nə yazıq ki, dünyanın qulaqları kar olmuşdu o gecə. Nə güllə səslərini eşidirdi, nə anaların fəryadını, nə də yaralıların iniltisini.

Kor olmuşdu dünya o gecə Bakı küçələrində soyuq asfalt üstündə buğlanan isti qan gölməçələrini görmürdü.

Daş döşənmiş küçələrdə əbədi yuxuya gedən Azərbaycanın mərd oğul-qızlarından fərqli olaraq öz pərqu yorğan-döşəyində mışıl-mışıl yatırdı dünya o gecə...

O gecə şəhidlərimizə ağlayan bir özümüz idik, bir də qərənfillər. Amma əsrin əvvəllərində Ulu Sabir "Ağladıqca kişi qeyrətsiz olar" demişdi.

Azərbaycan göz yaşlarını silib azadlıq mücadiləsini davam etdirməli idi. Məmməd Araz dodaqlarından ağ vərəqlərə süzülən alovlu misralar Azərbaycanı mübarizəyə səsləyirdi.

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

CƏHALƏTİN MEYVƏSİ

Allahın yer üzərinə göndərdiyi bütün peyğəmbərlərin və gətirmiş olduqları dinlərin məqsədi insan övladını sağlam əqidəyə dəvət etmək olmuşdur. Çünki insanın həyatını və yaşam tərzini onun daxili dünyası müəyyənləşdirir. İnsan özünü iman etdiyi şeyə görə formalaşdırır. Məhz buna əsasən də Allah-Təala biz qullarını rəbb və ilah olaraq yalnız özünə inanmağa dəvət edir və ibadəti də şəxsinə məxsus qılmağımızı murad edir. Çünki insanın dəyəri Rəbbini tanıması nisbətindədir və Ona olan inamı, sədaqəti ilə ölçülür. Rəbbi qarşısında sözün həqiqi mənasıyla əyilən bir insan başqa heç bir qapıda əyilərək insanlıq heysiyyətini ayaqlar altına atmaz. Haqq-Təala əşrəfi-məxluqat olaraq yaratdığı Adəm oğlunun bu heysiyyətə sahib olmasını istəyir. Ona görə də göndərmiş olduğu hər bir peyğəmbəri ilə, yer üzünə nazil olan kitablar vasitəsilə insanları yanlış əqidələrdən, imanla təzad təşkil edən mənfi davranışlardan uzaqlaşmağa çağırır. Xurafat və mövhumat dinin əslində olmayan, lakin sonradan dindənmiş kimi insanlar tərəfindən ona daxil edilən bir sıra hərəkət və sözlərdir. Bütün bunlar dinimiz tərəfindən qətiyyətlə inkar edilmiş və bu kimi inanca sahib olanlar küfr uçurumunun kənarına gəlmiş sayılırmışlar. Xurafat və mövhumat eynilə bir ağacın kökünə dolanan və onun inkişafına mane olan, gündən-günə geriləyərək məhvinə səbəb təşkil edən zəhərli sarmaşıq kimidir. Əslində xurafat elmin zəifliyi və cəhalətin meyvəsidir. İslamın nazil olduğu cahiliyyə dövrünə baxdığımız zaman bu gün cəmiyyətimizdə müşahidə etdiyimiz bir sıra mövhumat

qəbilindən əməllərin o dövrdə də yaşandığını görərik. O dövrün savadsızlıq mənasına gələn cahiliyyət dövrü adlandırıldığını diqqətə alarsaq bu kimi nöqsanların cəhalətdən qaynaqlandığını bir daha təsdiq etmiş olarıq.

Həzrət Peyğəmbər (s.ə.s)-in bəşəriyyətə təqdim etdiyi nümunəvi həyatında xurafat deyə biləcəyimiz ən xırda bir əməl belə müşahidə edilməmişdir. O, ömrü boyu insanları Allahın dininə dəvət edərək hər cür inancsızlıqdan, dolayısı ilə bu səbəblə cəmiyyətin inanc sisteminə yerləşmiş xürafələrdən uzaqlaşdırmağa çalışmışdır. Onun Vida Həccində bəşəriyyətin islahı naminə söylədiyi nitqində yer alan maddələr arasında "bütün cahiliyyə adət-ənənələri ayaqlarımın altındadır" sözü İslam Peyğəmbərinin ömrünün sonuna qədər cəhalət və mövhumatla mübarizə apardığının ən bariz nümunələrindəndir. Bu günün özündə də tez-tez rastlaşdığımız hansısa bir əməli, hansısa əlaməti mənfiyə yozmağı və nəhs saymağı o, əsla qəbul etmirdi. Buxari və Müslimdə yer alan, Əbu Hüreyrənin rəvayət etdiyi bir hədisində o, belə buyururdu: *"Ədva, tiyara, haməti və səfər ayını uğursuz saymaq doğru deyil"*. Hədisdə ifadə olunan terminləri qısa izah edərək mövzuya bir az aydınlıq gətirək. Ədva cahiliyyə ərəbləri arasında bir xəstəliyin Allahın iradəsi olmadan da xəstədən sağlam insanlara keçəcəyinə inam idi. Tiyara bəzi quşların uğursuz sayılması idi. Hamət də bayquş hansı evin damına qonarsa, o evdə ölüm hadisəsi baş verəcəyinə inanmaq idi. Eynilə bu gün bayquş oxuyan evin viran qalacağına inanmaq kimi. Buraya "önümdən qara pişik keçdi, işlərim alınmayacaq" kimi deyimləri, bəzi rəqəmləri uğursuz saymağı də əlavə edə bilərik. Gördüyümüz kimi Hz. Peyğəmbər bu kimi İslamla heç bir əlaqəsi olmayan və cəmiyyətdə qorxu, təlaş yaradan yersiz sözlərə, davranışlara qarşı idi. Bu gün baxdığımız zaman inkişaf etmiş və hətta özlərini ideal sayan böyük ölkələrin otellərində 13 rəqəmli otaqların boş saxlanılması, "qara cümə" adı altında insanlar üzərində qorxu yaradan günlərin olması kimi faktlar həqiqətən də gülünc olmaqla yanaşı acınacaqlı vəziyyətdən xəbər verir. Bu, mənəvi cəhətdən boşluq içərisində olmağın insanları gətirib çıxardığı acınacaqlı bir haldır. Səs-küyə səbəb olan bu kimi halların ən sonuncusunu 2012-ci lin gəlişi ilə yaşadıq. Hələ ilin yeni girməsi ilə insanlar arasında 2012-ci ilin dünyanın sonu olacağı şayiələri yayılmış, dekabr ayına az qalmış bu kimi sözsöhbətlər daha da vüsət tapmışdı. İmanında zəiflik olan insanların 21 dekabr öncəsində qorxu ilə çarələr axtararkən özlərini gülünc vəziyyətə qoyduqlarını bütün dünya seyr etdi. Sanki əcəl gəldikdə qaçıb qurtulmaq mümünmüş kimi... Görəsən, bu kimi dedi-qodularla dünya ictimaiyyətinin gündəmini sapdıran və buna inanan insanlar 2013-cü ilin nəhs "13" rəqəmindən dolayı ortaya hansı uydurma fikirləri atacaqlar?!

Bütün bu kimi neqativ hallar təbii ki, insanın ilahi nizamdan uzaqlaşması, dini savadın kifayət qədər olmaması nəticəsində meydana gəlir. Bu kimi cəhalətdən qurtulmağın yeganə çarəsi isə əlbəttə ki, maariflənməkdir. Çünki elm cəhalət qaranlığını dəf edən güclü bir işıq kimidir.

Xurafat və mövhumat eynilə bir ağacın kökünə dolanan və onun inkişafına mane olan, gündəngünə geriləyərək məhvinə səbəb təşkil edən zəhərli sarmaşıq kimidir. Əslində xurafat elmin zəifliyi və cəhalətin meyvəsidir.

Elşən RZAYEV
elshanrza@hotmail.com

MÜASİR XÜRAFƏLƏR

Həyatın iki üzü var -biri dünya üzü, o biri axirət üzü. Axirətlə əlaqəni kəsmək, insanın həqiqətlə əlaqəsini kəsməsidir. Hər şeyin bir ruhu var. Yaradılanlar içində ruhsuz heç bir şey yoxdur. Həmçinin dünyanın da... Dünyanın canlanması üçün, bərbad hala gəlməməsi üçün ruhu vardır. Dünyanın ruhu nədir? Dünyanın ruhu axirətdir. Axirəti dünyadan ayırdığımızda geriyə ruhsuz bir cəsəd qalır.

İnsanlar necə ölürsə, "hər canlı ölümü dadacaqdır" ilahi bəyanına görə dünyanın da bir sonu olacaq, yəni dünya da ölümü dadacaq. Qiyamət haqdır! Biz buna iman etmişik. İman güvənmək deməkdir. Biz görmədən inanırıq. Nə üçün görmədən inanırıq? Çünki biz Allahın doğru söylədiyinə iman etmişik.

Əslində qiyamət Qurani-Kərimdə "böyük xəbər " olaraq bildirilmiş və bir növ hər zaman üçün gündəmdə qalması vacib bir baş xəbər olmuşdur. Ancaq bu da bir həqiqətdir ki, hər nəfəs alıb-verdiyimizdə qiyamətə bir addım da yaxınlaşırıq. "Qiyamət nə zaman qopacaq", -deyə Peyğəmbərimizdən soruşulduqda, "Qiyamət üçün nə hazırladın?", -cavabını

vermişdir. Digər bir hədisində də "İnsan öldüyü zaman qiyaməti qopar", -buyurmuşdur. Çox qəribədir ki, heç kim özü üçün qaçınılmaz olan qiyamətini düşünmür.

Qiyamət nə zaman qopacaq bilmirik. Allah-Təala belə buyurur: **"(Ya Rəsulum!) Səndən saat (qiyamət günü) haqqında soruşarlar ki, nə vaxt qopacaq? De: "O ancaq Rəbbimə məlumdur. (Qiyamətin) qopacağı vaxtı Allahdan başqa heç kəs bilə bilməz. Göylərdə və yerdə (Allahdan qeyri) bir kimsənin onu bilməsi çətindir. O sizlərə ancaq qəflətən gələr!" Sən onun haqqında bir şey bilirsənmiş kimi onlar (səndən) israrla soruşarlar. De: "O ancaq Allah dərgahında məlumdur, lakin insanların əksəriyyəti (bunu) bilməz!"** Qiyamətin vaxtı Rəbbinə aiddir. Qiyamətin sahibi olan Allah onun vaxtını bildirməmişdir. Bu, Allahın insan övladına bir lütfüdür. Qiyamət vaxtının bildirilməməsinin səbəbi Maya təqviminə görə guya 21 dekabr 2012-ci ilin "qiyamət günü" olduğu iddialarına inanaraq tələşə düşənlərin timsalında daha yaxşı anlaşıldı, inanıram ki. Çünki endirilən dinə deyil, uydurulan dinə görə hərəkət etdikdə insanın necə gülünc vəziyyətə düşdüyünün şahidi olduq. İnsan Allahın ona verdiyi xüsusiyyətləri işlətmədiyi zaman zəifləyər, bəziləri də bu zəifləmədən istifadə edərək ona zülm edər. Özünü bilmədən başqalarını bilmək, fərqində olmadan onların bəzi adətlərini yaşamağa səbəb olar. Axirətə imanda zəif olanlar şeytanın mesajına inanırlar. İnancsız insanlar ilahi buyuruqlardan başqa nə tapsalar, ona sarılırlar təəssüf ki.

Bu gün insanlar qaranlıqları çoxdan arxada qoyub aydınlandıqlarını düşünürlər. Nə də olsa, XXI əsrdə yaşayırıq! Elmi tərəqqi əsrində! Hətta elm əhli insanlara Türkiyə türkcəsində aydın, bizim Azəri türkcəmizdə ziyalı deyilir. Çox gözəl! Bəs müasir xürafələrə inanan milyonlarla insanın arasında heç ziyalı adlandırılanlar yoxdurmu? Yaxşı, harda qaldı bəs ziya, aydın kəlməsinin ardına sığınanlar? Deməli, müəyyən elmi bilikləri əldə etmək hələ aydınlanmaq deyil, ziya sahibi olmaq deyil. Həqiqi aydınlanma, ziya sahibi olma Quranı dərk etməkdir. Çünki insanı yaradan Allah Qurani-Kərimi insanların aydınlanması üçün göndərdiyini bəyan edir:

İnsan Allahın ona verdiyi xüsusiyyətləri işlətmədiyi zaman zəifləyər, bəziləri də bu zəifləmədən istifadə edərək ona zülm edər. Özünü bilmədən başqalarını bilmək, fərqində olmadan onların bəzi adətlərini yaşamağa səbəb olar.

"Əlif, Lam, Ra! (Ya Rəsulum! Bu Quran) elə bir Kitabdır ki, onu sənə insanların öz Rəbbinin izni ilə zülmətlərdən nura (küfrdən imana) – yenilməz qüvvət sahibi, (hər cür) tərifə (şükürə) layiq olan Allahın yoluna (islam dininə) çıxartmaq üçün nazil etmişik." (İbrahim, 1)

"Sizi zülmətlərdən nura (küfrdən imana) çıxartmaq üçün Öz bəndəsinə (Muhəmməd əleyhissəlama) açıq-aşkar ayələr nazil edən Odur. Allah sizə şəfqətlidir, mərhəmətlidir!" (Hədid, 9)

İman işıqdır, inkar isə qaranlıq. Vəhyi yalanlamaq ən böyük nankorluqdur. Çünki vəhy insanın önünə Allahın sərdiyi sonsuz nemətlərlə dolu ilahi bir süfrədir.

İnsan yaradılış məqsədinə uyğun bir həyatı inşa etmək istəyirsə, dünyada necə bir ömür yaşadığından əbədi həyatda hesab verəcəyini unutmamalıdır.

Unutmamalıyıq ki, bütün yolların sonu Allaha çıxır. İnsan istəsə də, istəməsə də Rəbbinə doğru yol alır. Nə etsə, hidayət üzrə olsa da, batillə məşğul olsa da, nəhayət, Allahın hüzuruna çıxacaq.

Rüfət ŞİRİNOV

XÜRAFƏLƏRLƏ MÜBARİZƏ

Bir millətin mədəniyyətini əks edən ən əsas amillərdən biri də şübhəsiz ki, adət-ənənələrdir. Odur ki, millətin əbədi yaşaması və mədəniyyətin ümumbəşər olması üçün hər bir fərdin keçmişinə, tarixinə və adət-ənənələrinə bələd olub onları yaşatması lazımdır.

Azərbaycanın uzun müddət ateist rejimin əsarətində qalması dini və milli adət-ənənlərinə öz mənfi təsirini göstərmişdir. Dinin qadağan olması və rejimin uyğun gördüyü bəzi xürafələri din olaraq xalq arasında yayması zamanla bu adətlərin din halına dönməsinə şərait yaratmışdır. Dini əsli olmayan adətlər din adı altında yayılmışdır. Əlbəttə ki, yanlış da olsa bu cür əməllərin xalq arasında dini əsilli olduğuna inanaraq onlara sahib çıxması cəmiyyətin nə qədər dinə meyilli olduğunu göstərir. Ancaq bilinməlidir ki, din sonradan dinə yamanmış olanları qəbul etmir.

Bir mədəniyyətin əsasında böyük rol oynayan adət-ənənələrin mədəniyyətə müsbət mənada təsir göstərməsi üçün əlbəttə ki, onların pak, real, elmi həqiqətlərə uyğun olması labüddür. Bəs buna necə nail ola bilərik? Bu məqaləmizdə qısa da olsa İslam pəncərəsindən adət-ənənələrə baxaraq bunu təhlil etmək istərdik. Cünki mədəniyyətimizin milli adət-ənənələrimizi təşkil edən ən əsas amillərdən biri də İslam dinidir. İslam dini nöqteyi-nəzərindən xürafələrlə mübarizə aparmaq üçün bunlara diqqət etmək lazımdır:

Pak adət-ənənəyə malik ola bilmək üçün ilkin növbədə din donuna girmiş xürafələri

Xürafələrin yayılmasının bir çox səbəbi var. Ancaq bunların ən başında mənəvi tədrisin olmaması və dini əsasların kifayət qədər bilinməməsi gəlir. Elm cəhalətin düşmənidir. Məhz buna görə də dinimizi əsas mənbələrdən öyrənmək doğru olanı əldə etməyin açarıdır. Ağızdan eşitdiyimiz və ya nə olduğu, kimin tərəfindən yazıldığı bilinməyən kiçik həcmli kitablardan din öyrənmək olmaz.

tanıyıb, onları dindən və adətlərimizdən kənarlaşdırmaq lazımdır. Cəmiyyətimizdə adət-ənənəyə o qədər xürafələr nüfuz edib ki, bunları bir-birindən ayırmaq çox çətindir. Əgər biz adət-ənənəmizi xurafatdan təmizləməsək, mədəniyyətimiz də xurafata əsaslanacaqdır. Xurafat və batil inancların ən böyük zərəri əsasən onlara inanıb dini adət kimi tətbiq edənlərə toxunur. Çünki yanlış əqidə və xurafat insanları doğru yoldan uzaqlaşdırır. Sağlam təməli olmayan binanın ömrü qısa olduğu kimi, sağlam əqidə üzərində inşa edilməmiş imanında uzun müddət ayaqda qala biləcəyini təsəvvür etmək düzgün olmaz. Bu mənada Peyğəmbər (ə.s.s) nə gözəl buyurur: *"Kəlamların ən gözəli Allahın kitabıdır. Yolların ən doğrusu Məhəmmədin (s.ə.s) yoludur. Əməllərin ən pisi və zərərlisi dindən olmadığı halda sonradan uydurulub dinə yamananlardır. Bu cür uydurulmuş hər şey bidətdir, (xurafatdır), hər bidət də doğru yoldan uzaqlaşma və azğınlıqdır"*. (Buxari) Odur ki, dinə uyğun adətləri mənimsəmək xurafat aparılan ən düzgün mübarizədir. Çünki İslam dini adət-ənənəyə çox əhəmiyyət verir. Adətlər dinin təməl əsaslarına uyğun olub-olmaması baxımından dəyərləndirilir. Dini əsaslara uyğun olanlar qəbul, uyğun olmayanlarsa inkar edilir. Yəni adətlər vəhy süzgəcindən keçirildikdən sonra qəbul edilir. Məsələn, Quranı-Kərimdə **"Onlara (bütpərəstlərə): "Allahın göndərdiyinə (Qurana) tabe olun!" -deyildiyi zaman onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" -deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyillərsə necə? (Yenə də onlara tabe olacaqlar?)"** (Bəqərə surəsi 179) deyilərək adət və ənənələrdə dinə uyğunluq əsasına diqqət çəkilmişdir.

Xurafələrin yayılmasının bir çox səbəbi var. Ancaq bunların ən başında mənəvi tərbiyənin olmaması və dini əsasların kifayət qədər bilinməməsidir. Elm cəhalətin düşmənidir. Məhz buna görə də dinimizi əsas mənbələrdən öyrənmək doğru olanı əldə etməyin açarıdır. Ağızdan eşitdiyimiz və ya nə olduğu, kimin tərəfindən yazıldığı bilinməyən kitablardan din öyrənmək olmaz.

Eyni zamanda Peyğəmbərimizin həyatını da düzgün tədqiq etmək və onun həyatından örnəklər götürmək də xürafələrin qarşısını almaq üçün önəmli vasitədir. Hər kəsə məlum olduğu kimi Hz. Məhəmmədin (s.ə.s) İslam dinini təbliğ etdiyi dövr cəhalətin və xurafatın ən zirvədə olduğu dövr idi. Həmçinin onun uzaqgörənliyi və müdrikliyi sayəsində xurafat bataqlığında boğulan cəmiyyət ən xoşbəxt cəmiyyətə çevrildi. Odur ki, onun mübarizədə izlədiyi metodu izləmək əhəmiyyət kəsb edir. Bundan başqa Həzrət Peyğəmbərin dini yaşayışı mənasına gələn hədislər də dinin əsas mənbələrindən biri olduğuna görə onları düzgün öyrənib həyatımızda tətbiq etsək, yenə də doğru yolu taparıq. Oxuyub yaza bilən hər müsəlman Peyğəmbər əleyhissalamın hədislərini oxumalı və onu həyat rəhbərinə çevirməlidir. Çünki hər namazda Allahdan arzuladığımız "sirati müstəqim" (doğru yol) onun rəhbərlik etdiyi yoldur. Unutmayaq ki, unudulan və tətbiq edilməyən hər sünnənin yerini bidət, yəni xurafat alır.

Son günlərin ən yayılmış xəstəliklərindən biri də mütəxəssis olsa da, olmasa da hər kəsin dini sahədə fikir bəyan etməsi və hökm verməsidir. Bu da əlbəttə ki, yeni hidayət tapacaq insanlar üçün çətinlik yaradır. Yanlış məlumatlar onları dindən uzaqlaşdırır və xürafələrə meyil etməsinə səbəb olur. Unutmayaq ki, yarımçıq həkim candan, yarımçıq molla da imandan edər.

Bir dua ilə yazımı bitirirəm: *"Ey qəlbləri haldan hala çevirən Allahım!. Mənim qəlbimi dinindən ayırma!"* (Tirmizi) Bu duanı gündəlik dualarımızın arasına qatmaq ümidi ilə.

Eldar KƏRIMOV
canyanar@yahoo.com

MƏNİM BABAM ŞAXTA (BABA) DEYİL

Köhnə ilin son günləri idi. Havalar birdən-birə dəyişmişdi. Qışın soyuğu adamı qılınc kimi kəsirdi. Küçələrdəki izdiham elə bil ərşə çəkilmişdi. Hər yerdə sükuta bürünmüş bir boşluq hökm sürürdü. Mülayim yaz havası öz yerini dondurucu qış soyuğuna vermişdi. Ara-sıra havada tək-tük qar dənəcikləri görünürdü. Küçədəki it-pişiklərin belə soyuqdan halları pərişan olmuşdu. Gözləri aclıqdan ölməsinlər deyə qarşılarına bir-iki loğma çörək atan insanları axtarırdı. İlk qarın yağmasıyla sadəcə uşaqların üzündə sevinc və həyəcan açıq-aşkar hiss olunurdu. Yeni ilin gəlişinə az qalmışdı. Böyük sevinclə şəhərin mərkəzi yerləri və meydanlarında böyük "yolka"lar qurulur və rəngarəng işıqlarla bəzədilirdi. Elə bil həqiqətən də mühüm bir hadisə baş verəcəkdi. Milli parkda balacaları əyləndirəcək Şaxta baba və Qarqızın seçim turlarına start verilmişdi. Şaxta baba hədiyyələrlə dolu xurcununu belinə alaraq onun yolunu gözləyən uşaqları sevindirəcəkdi. Bundan başqa ətrafda baş verənlərə sevinənlər də vardı, məyus olanlar da. Kimisi yeni il axşamı dost-tanışları ilə əylənməyin xəyalını qurur, kimisi də istədiklərini edə bilməməyinin məyusluğunu yaşayırdı. Küçələrin divarlarını şənlik proqramlarının afişaları doldurmuşdu. Marketlərdə adam əlindən tərpənmək mümkün deyildi. Sanki hamı bütün il boyu alacaqlarını ilin sonuna saxlamışdı. Bəlkə də insanlar yeni ilə nakam keçməmək üçün il boyu dadmadıqlarını ilin son günlərində dadıb sonra keçmək istəyirdilər yeni ilə. Ətrafdakı hər kəs arzuladığı xoşbəxt bir dünyanı imkanı daxilində yaşamağa çalışırdı. Qəribə burasındadır ki, məsələdən agah olan da, olmayan da sürü psixologiyasına könül verib

Qışın gəlişini onlara ətrafdakı evlərin bacalarından çıxan qara tüstü bildirirdi. Yağan qar onların bədənlərini dondurduğu kimi xəyallarının yollarını da dondururdu. Bu soyuq qış günlərində isti ana qucağı illərlə xəyallarında canlandırdıqları xoşbəxt bir dünya idi. Hər gün aynanın qarşısında oturub bir gün ata və analarının gəlişini gözləyən bu biçarə körpələrin ümidlərini yalançı Şaxta babalar gerçəkləşdirə bilmirdi.

yeni il qabağı evində bu ab-havanı əsdirirdi. Evlərin küncündə qurulmuş bərbəzəkli böyük "yolka"lar, uşaqların üzlərinə keçirdikləri Şaxta baba maskaları və qotazlı papaqlar hələ də bizim çox şeydən xəbərsiz olduğumuzdan xəbər verirdi.

Ancaq başqa bir dünyanı yaşayanlar da var idi. Bizim yaşadığımız dünyanın içərisində başqa bir dünyanı yaşayanlar. Yaşadıqları dünya onlara dünyanın nə olduğunu izah edə bilmirdi. Onlar sadəcə yaşadıqları uşaq evinin pəncərələrindən görünən bir dünyanı görə bilirdilər. Qışın gəlişini onlara ətrafdakı evlərin bacalarından çıxan qara tüstü bildirirdi. Yağan qar onların bədənlərini dondurduğu kimi xəyallarının yollarını da dondururdu. Bu soyuq qış günlərində isti ana qucağı illərlə xəyallarında canlandırdıqları xoşbəxt bir dünya idi. Hər gün aynanın qarşısında oturub bir gün ata və analarının gəlişini gözləyən bu biçarə körpələrin ümidlərini yalançı Şaxta babalar gerçəkləşdirə bilmirdi. Yolkaların üzərində sayrışan işıqlar onların zövqlərini oxşamırdı. Şaxta babanın sehrli xurcunundan nə çıxaracağı əhmiyyətini itirmişdi artıq. Çünki bu ağ saqqallı kişi varlı və imkanlı ailələrin uşaqlarına sovqat aparırdı. Axı onların gözlədikləri bu deyildi. Onlar ataların pulları xətrinə evlərə gedib sovqat paylayan saxta babaları deyil öz ana və atalarının isti nəfəsini arzulayırdılar. Qartopu oynamaq da ürəklərincə deyildi, çünki nə donmuş kiçik barmaqlarını isidəcək sobaları, nə də isti geyimləri var idi. Hər şey istəyən bu körpələr heç nəyin yoxluğu ilə üzləşirdilər. Hər arxada qoyduqları ilin içərisində saysız ümidlərini dəfn edirdilər. Yeni ildə yeni ümidlərə inanmırdılar artıq. Onlar üçün yeni olan heç bir şey yox idi. Hər şey köhnə və əvvəlki kimi davam edəcəkdi. Yenə onlar diqqətdən uzaq, qayğıdan kənar qalacaqdılar.

Bir tərəfdə isə min-bir əziyyətlə böyüdüb boya-başa çatdırdığı övladları tərəfindən qocalar evinə tərk edilmiş babalar və nənələr... O babalar və nənələr ki, öz nəvələrinin həsrətini bütün Şaxta babalardan daha çox çəkir. Bəlkə onlara verəcək hədiyyələri yoxdur, ancaq onların uğrunda fəda edəcək bir canları var. Onlar şaxta vurmuş bir qəlblə deyil, sevgi atəşi ilə alovlanan bir ürəklə sevirlər öz nəvələrini.

Son olaraq onu deyim ki, hərcür bəhanəylə öz övladlarımızı sevindirməyə və əyləndirməyə çalışırıq. Onların zehinlərində Şaxta baba obrazını xeyirxah bir qoca olaraq canlandırdıq. Bir müsəlman olaraq "bu bizim bayram deyil" demədən yeni ilin gəlişinə hamıdan çox biz sevindik. Övladlarımızın beyninə öz doğma babalarından box, əsli-nəsəbi bilinməyən Şaxta baba sevgisini aşıladıq. Doğma baba və nəvələr arasında uzaq məsafələr qoyduq. Onları bir-birindən ayırdıqca süni sevgilər və yalancı baba obrazları ortaya çıxdı. Bəlkə hələ də gec deyil, qocalar evinə tərk etdiyimiz ata-analarımızı və körpələr evindəki nur üzlü balalarımızı bir damın altında birləşdirməyin vaxtıdır.

Müşfiq XƏLİLOV
muslimxalil@hotmail.com

MÖVHUMAT

Dinimizin saflığını təhlükə qarşısında qoyan amillərdən biri xurafat və mövhumatlardır. Təsadüfi deyil ki, dini dəyərlərimizi tənqid edənlər dəlil kimi məhz müsəlmanlar arasında geniş yayılmış xürafələri misal çəkir, İslamın adına çıxarıb dinimizi gözdən salmağa çalışırlar.

Problem bundadır ki, müsəlmanlar arasında xürafələrə iman bəsləyənlər az deyil və Quranda vacib sayılan əməllərə bu xürafələr qədər riayət etmirik. Xurafata inanmaq demək olar ki, həyatımızın bütün sahələrində özünü göstərməkdədir. Doğulduğumuz andan ömrümüzün sonunadək bu xürafələr "kabus" kimi bizi izləməkdədir. Məsələn, ulduz falı, qapının arasında görüşməyin bədliyi, qara pişik və s. kimi xürafələrlə gündəlik həyatımızda tez-tez qarşılaşırıq. Lakin hər yerdə olduğu kimi bu xürafələr arasında birinci sırada yer alanlar var.

Xürafələr içində birincilik üzərlik, gözmuncuğu, at nalı, dağdağan ağacına məxsusdur. Nədənsə onların insanı bədnəzərdən qorumasına inam digərlərinə nisbətən daha çoxdur. Uşaq anadan olanda, ilk addımını atanda, məktəbə və universitetə gedəndə ilk görülən iş üzərlik yandırmaq, sonra da uşağın üzərinə gözmuncuğu, yaxud da dağdağan taxmaqdır. At nalı isə evimizi "bədnəzərdən qoruyur". Adətə görə, onu evlərimizin qapısı üstündə, göz qabağına vururuq ki, görənlərin bədliyini aradan götürsün. Deyirlər, guya üzərlik yandırıb hamının başına dolandırılmalıdı, kiminsə başına dolandırılmasa, bədnəzər onu tutar. Hətta gözmuncuğu hərdən bədnəzərin ağırlığına dözməyib sınır. Doğrudur, gözdəymə haqdır. Bu, hədislərlə sabitdir. Ancaq bunun çarəsi uzərlik yandırmaq, at nalı bağlamaq deyil, Hz. Peyğəmbərin bizə öyrətdiyi duları oxumaqdır. Hz. Peyğəmbər (s.ə.s) bədnəzər qorxusu ilə yaşayan insanlara "Maşallah" ifadəsini dilə gətirməyi və Qurani-Kərimin "Fələq", və "Nas" surələini oxumağı tövsiyə etmişdir.

On üç rəqəmi və tək səbir gətirməyin nəhs olması, yəni uğursuzluq gətirməsinə inam da geniş yayılan xürafələrdəndir. Heç bir İslam mənbələrində 13 rəqəmin uğursuzluğu haqda bir məlumat yoxdur. Nəinki 13 rəqəmin uğursuzluğu, ümumiyyətlə İslamda uğursuzluq deyə bir anlayış yoxdur. Bu inanc digər dinlərdən keçən batil bir inancdır. Tək səbir məsələsi isə bir az fərqlidir. Bu inancın kökü cahiliyyə dövrünə gedib çıxır. Adətən dindən, imandan xəbərsiz cahil ərəblər tək

Heç bir İslam mənbələrində 13 rəqəmin uğursuzluğu haqqında bir məlumat yoxdur. Nəinki 13 rəqəmin uğursuzluğu, ümumiyyətlə İslamda uğursuzluq deyə bir anlayış yoxdur. Bu inanc digər dinlərdən keçən batil bir inancdır.

səbir gətirərkən sətri mənada "itə getsin", xoşlamadıqları adama isə "özünə getsin", yəni xalq arasında işlətdiyimiz "öz başını ye" deyimini söyləyirdilər. Lakin Hz. Peyğəmbər (s.ə.s) "asqıran kimsənin "əlhəmdulilləh" deməsi imandandır" deyərək, onu yaxşı mənaya yozmuş və beləliklə bunun insanların işləriylə heç bir əlaqəsinin olmadığını bildirmişdir. Amma nədənsə çoxumuz hələ də cahil ərəblər kimi davranırıq. Tək səbir gətirdikdə Allaha şükür etmək əvəzinə, bir işə başlamaq istəmir, dayanıb gözləyirik.

Kitab açdırmaq da xürafələr içəirisində "sayılıb seçilənlərdəndir". Məsələn, bəzi kimsələr bir şeyə niyyət etdikdə üz tutur baxıcılara, deyir ki, "bir kitab aç görək bu işin axırı necə olacaq". Bəzi işbazlar da fürsəti əldən verməyib keçirlər "dəzgah" arxasına. Başlayırlar insan taleyi ilə oynamağa. Çox vaxt bunu ayələrində belə işləri qadağan edən Qurani-Kərim vasitəsi ilə edirlər. Sonra onu öpüb gözlərinin üstünə qoyub təbəssümlə deyirlər: "Yaxşı göstərir, əladır. Allah xeyrini versin". Ya da aktyor ustalığı ilə uz-gözlərini turşudub deyirlər: "Pis göstərir, yaxşı bir şey görmürəm. Amma bir dua yazaram işlər düşər qaydasına". Heç deyən yoxdur axı, sən orada nə görə bilirsən. Məgər Quran-Kərim insanların taleyindən xəbər vermək üçün nazil olub? Düzdür, Qurani-Kərimdə qeyb aləmi barədə xəbərlər var. Ancaq orada konkret hansısa insanın gələcəyi ilə bağlı məlumat yoxdur. Bunu həmin kitab açanların əksəriyyəti yaxşı bilirlər, bilməyənlər isə onu oxuyub məlumatlansınlar.

Cəmiyyət arasında geniş yayılan xürafələrdən biri də yas mərasimləri ilə bağlıdır. Hüzn sahibi yaxınını itirməsi ilə bərabər, başsağlığı verməyə gələnlərin "xəcalətindən" çıxmağın qayğısı ilə yüklənir. Bilmir ölüsünün, yoxsa qənd, çay, ət pulunun dərdini çəksin. Halbuki İslamda təmtəraqlı yas süfrəsi açmaq, yeddi, qırx, cümə axşamları, ildönümü mərasimi keçirməyin heç bir yeri yoxdur. Necə ki, Hz. Əlinin bu barədə bir sözü var: "Üç gündən sonra başsağlığı vermək hüzn sahiblərinin dərdini təzələməkdir." Hətta nəinki hüzn sahibi kimsənin süfrə açıb ehsan verməsi, tam əksinə, hüzn sahiblərinə yemək aparılmalıdır. Necə ki, Cəfər Təyyar şəhid olduqda Hz. Peyğəmbər (s.ə.s): "Cəfərin ailəsi üçün yemək hazırlayın! Çünki onlar belə vəziyyətdə yemək bişirə bilməzlər," (Əbu Davud, Cənaiz, 25-26) buyurmuşdur. İmam Cəfər Sadiq isə bu barədə belə buyurur: "Hüzn evinin süfrəsində yemək, cahiliyyət dövrünün əlamətlərindəndir. İslamın sünnəsi odur ki, yas sahiblərinə yemək aparsınlar."

Umumiyyətlə bu kimi əməllər heç vaxt İslamda olmayıb və olmayacaq. Bunların dindən olduğunu demək günahdır. Hz. Peyğəmbər (s.ə.s) özünə peyğəmbərlik verilən vaxtdan xurafat və mövhumatçılığa qarşı daim mübarizə aparmışdır. O halda gəlin biz də Uca Allahın bu xalis haqq dinini düzgün öyrənək. Dinimizdə heç bir yeri olmayan xürafələri İslama qatmayaq. Həyatımızın bütün sahələrində xurafatdan uzaq, həqiqi İslamı tətbiq edək. "(Ya Peyğəmbər!) Biz Kitabı sənə haqq olaraq nazil etdik. Buna görə sən də dini məhz Allaha aid edərək yalnız Ona ibadət! et! Bil ki, xalis din (sırf ibadət, təmiz itaət) ancaq Allaha məxsusdur..." (əz-Zümər, 2-3)

Dr. Əhməd NİYAZOV
ahniyazov@hotmail.com

MİR MƏHƏMMƏD KƏRİM VƏ "KƏŞFUL-HƏQAİQ" TƏFSİRİNDƏ XURAFAT ANLAYIŞI

Mir Məhəmməd Kərim Bakuvi 1853-cü ildə Əmircan kəndində anadan olmuşdur. O, ilk təhsilini mədrəsədə almış, 1871-ci ildə atasının istəyi ilə ali təhsili üçün Bağdada getmişdir. On il burada təhsil aldıqdan sonra Təbrizə baş çəkərək vətənə qayıtmışdır.

Bakıda uzun müddət İçərişəhər Şah məscidində imamlıq, 1904-cü ildən 1918-ci illər arasında isə *Bakı Şiə Məclisi*nə sədrlik etmişdir. Bu dövrlərdə o, 14 il ərzində Bakı, Quba, Cavadlı, Şamaxı, Göyçay və Lənkəran Qazılığını idarə etmiş, eyni zamanda privatak kimi imtahanlarda komissiya üzvlərinə başçılıq etmişdir.

Maddi- mənəvi, fərdi və ictimai işlərdə onun məsləhətinə üz tutanların sayı-hesabı yox idi. Zeynalabdin Tağıyevin "Hidayət Məclisi"nin qurulmasında yaxından iştirak etmişdi. Mir Məhəmməd Kərim təşkilatçılığı və İslamın dövrün ehtiyaclarına olan töhfələrini səsləndirməklə həmişə diqqəti cəlb edən bir mövqedən çıxış etmişdir. Onun yenilikçi ruhu cəmiyyətin bir çox ilklərinə də səbəb olmuşdur.

1905-ci ildə erməni-müsəlman davasında ağ cübbəsini geyərək küçəyə çıxmış, yağan güllələrə baxmayaraq əlində qırmızı bayrağı ilə insanları barışığa çağırmış, qan tökülməsinə qarşı çıxmışdır. Sükunətin bərpasından sonra ermənilər yazırdı ki: "*Müsəlmanları öldürmək üçün əvvəlcə qazını öldürmək lazım idi.*"

O, həmçinin 1918-ci ilin mayında qurulan iki illik Azərbaycan Demokratik Cümhuriyyətinin ən hərarətli tərəfdarları arasında milli azadlıq və milli birliyin carçısına çevrilmişdi.

Moizə və söhbətlərində elmin inkişaf yolları və savadsızlığın aradan qaldırılması onun əsas meyarı olmuşdu. O, deyirdi: "*Dinin və imanın əsası elm və irfandır. Balalarınızı məktəbə göndərin. Milli yüksəlişin yeganə yolu elmdən keçir.*"

O, yüz il əvvəl yazdığı təfsirində Hücurat surəsinin ikinci ayəsinin izahında insanlara demokratiya dərsi verirdi. Ona görə inanan və inanmayan hər kəs Qurandan bəhrələnir. Quran müşavirəni, əksəriyyətin qərarına hörmətamiz davranmağı və həmfikir olmağı əmr edir. Müsəlmanlar bunu izləməsə də, dünyanın bütün qabaqcıl ölkələri bu prinsiplərlə idarə edilir. Əsas demokratiyanın özü İslamdadır və belə möhtəşəm bir qaynaq əldə mövcud ikən bunun ölülərə aid edilməsi qəbul edilə bilməz.

Mir Məhəmməd Kərim eyni zamanda müsləmanların arasına girən təfriqə və bölünmələrə toxunaraq bunun səbəblərini cəhalət və nifaqda görür, müsəlmanların cəhalət və rəzalətə düçar olmalarının əsas səbəbini isə Qurani-Kərimdən uzaq düşmələrinə bağlayırdı. O, öz təfsirində belə deyirdi:

"Niyə də birləşməyək ki, hamımızın Allahı bir, kitabı bir, peyğəmbəri birdir. Bu qədər birliklər içində niyə də ittifaq edilməsin? İslamın ilk günlərində "Lə ilahə illəllah"da birləşmişdilərmi? İndi elə bir dərdə düşmüşük ki, bu dərdin dərmanı yoxdur. Bu dərd cəhalət və nifaq dərdidir. İkisi bir-birinə bağlıdır. Cəhalətin olduğu yerdə nifaq da vardır. Məlumdur ki, hansı cəmiyyət elmin nuru ilə aydınlanmışdırsa, onlar arasında nifaq qalmamışdır. Hamı birləşmişdir. Məlum olur ki, cəhalət və nifaqın düşməni elmdir." (Kəşful-Həqaiq, II, 508-9)

Məhəmməd Kərim Bakuvi dinə könüldən bağlı bir peyğəmbər nəvəsi idi. Bu cəhətilə o, Peyğəmbərimiz (s.ə.s)-ə "dədəcan" deyərək müraciət edir və oxucularını dərin təsir altında qoyaraq dövrün şikayətlərindən bəhs edirdi:

"Ey Dədəcan! Ey Allahın Rəsulu! Bu cahillərin sözlərindən və əməllərindən ötrü nə qədər bəlalara düçar olmusan. Ta ki, fövqəlbəşər bir səbirlə bunlara qatlanaraq İslam dinini yaymış və kamala çatdırmısan. Fəqət hal-hazırda sənin gətirdiyin bu əsaslar yıxılıb təkrar cahiliyyəyə dönülmüşdür. İslamın sadəcə rəsmi qalmışdır.

Allahım, bir vəhdət carçısı göndər! Ta ki, cəhalətin pis toxumu, müsəlmanların arasından qalxsın, yerini elmin nuru və mərifət alsın. Amin." (Eyni adlı əsər, II, 230)

> *"Bəziləri də vardır ki, özündən xurafatlar uydurur və bunun təqlidinin vacib olduğunu deyir. Xəlqi özlərinə cəlb edib firqələrə bölürlər... Uydurma haram və halallarla digərlərinə xəta isnad edib, özünü haqq bilmək İslamdandırmı? Özünüzü bu vəsayətlərin kəməndindən və torundan xilas etmək üçün bir çarə axtarın. Qurani-Şərifin əhkamının ucalmasını və müxtəlif adları silib müsəlman və ya Quran əhli adı ilə səadət əsrini əldə etmək lazımdır."*

Mir Məhəmməd Bakuvi bunun nümunəvi timsalını özü təzahür etdirmiş, metodologiyasında əyani surətdə bunun mümkünlüyünü göstərmişdir. Hədis sahəsində **Buxari**dən **Kuleyni**yə qədər sünni və şiə qaynaqlarına müraciət etmiş, hədislərin qaynağı olaraq səhabələrin cəmini adil qəbul etmişdir. Şiə təfsirləri ilə yanaşı Zəməxşəri, Fəxrəddin Razi, Əbus-Suud, Qazi Beyzavi, İsmail Haqqı Bursəvi kimi müfəssirlərin təfsirlərindən istifadə edərək iki ekolun tarixində ən böyük uzlaşma nümunəsi göstərmişdir.

Bakuvi dində fanatizmə və batil xürafələrə şiddətlə qarşı çıxmışdır. O, bidət, xürafə və dini yozlaşmalara düşmə səbəbi kimi müsəlmanların Qurandan uzaq qalmalarını, bunun nəticəsində də cəhalətə düşərək heç bir qabaqcıllıq göstə-

rə bilməyəcəklərini öz təfsirində başdan sona qədər ən qabarıq şəkildə vermişdir.

"*Heyf olsun ki, müsəlmanlar Quran-Şərifin açıq ayələrindən faydalanmırlar. Belə bir zəmanədə cəhalətdən xilas ola bilmirlər. Bir xəstəlik üz verəndə Allahın əmr etdiyi müalicə vasitələrini tərk edib dua asanlara, tilsim yazanlara müraciət edirlər...*

Xəstəliklərdən xilas olmaq üçün onlara dualar öyrədirlər. O yazıq biçarələr haqq olan Quranı tərk edib, bu cürə xurafatı haqq bilirlər... İslam bunu qəbul edə bilməz. Bu cür cəhalətdən azad olmamız lazımdır. " (Eyni əsər, III/242.)

Məhz buna görədir ki, o, ərəbcə təfsirlərin başa düşülməsinin çətinliyi səbəbilə müsəlmanın öz dilində bir təfsiri oxuyub, Quranın izah və hökmlərinə diqqətlə baxıb görməsini təmin etmək məqsədilə sadə bir təfsir yazaraq Quranın mənasının asan anlaşılmasından ləzzət aldığını qeyd edir, hamını Quran həqiqətləri ətrafında birləşməyə səsləyirdi.

"*Bəziləri də vardır ki, özündən xurafatlar uydurur və bunun təqlidinin vacib olduğunu deyir. Xəlqi özlərinə cəlb edib firqələrə bölürlər... Uydurma haram və halallarla digərlərinə xəta isnad edib, özünü haqq bilmək İslamdandırmı?*

Özünüzü bu vəsayətlərin kəməndindən və torundan xilas etmək üçün bir çarə axtarın. Quran-Şərifin əhkamının ucalmasını və müxtəlif adları silib müsəlman və ya Quran əhli adı ilə səadət əsrini əldə etmək lazımdır." (Eyni əsər, III/754)

Bakuvi yazdığı bu əsərlə müsəlman ictimaiyyətinin yaralarını sarımağa, heç olmazsa da bu sahədəki nöqsanların aradan qaldırılması üçün yol göstərməyə çalışırdı. Bu səbəblə əsər 1904-cü ildə Hacı Zeynalabdin Tağıyevin maddi vəsaiti ilə Tiflisdə "Kaspi" qəzetinin Buxariyyə mətbəəsində çap olundu.

Təfsirin üç nüsxəsi 1907-ci ildə İstanbula göndərilmiş, Osmanlı padşahı II Abdulhəmidə Axund Yusif Talıbzadə tərəfindən şəxsən təqdim edilmişdir ki, bu haqda yazı sənədi hal-hazırda Başbakanlıq arxivi Osmanlı ilə Azərbaycan Xanlıqları münasibətlərinə dair arxiv sənədləri arasında (II/216-220 No76) saxlanılır.

İlk dəfə türk dilində nəşr olunan təfsirin şanı və şöhrəti bütün Türkistana yayıldı. Özbəkistan və Rusiyanın müxtəlif yerlərindən təbrik teleqramları gəlməyə başladı.

1920-ci ildə Mir Məhəmməd Kərim Mərdəkandakı evinə çəkilərək elmlə məşğul olmağa başladı. Çünki Azərbaycanı işğal edən Qzıl Ordu milli-mənəvi dəyərləri qadağan etmiş bunun nəticəsində 1925-ci ildə Allahsızlar cəmiyyəti quraraq dini və dindarları sosialist düşməni kimi qələmə vermişdilər. Bu siyasətin "təmizləmə hərəkatı" nəticəsində Qazı Məhəmməd Kərim də müxtəlif bəhanələrlə dindirilməyə başlandı. Əməliyyat müvəkkili Varoşkeviç onu 13 fevral 1938-ci ildə Maştağa şöbəsində sorğuya çəkdi. Yalançı şahidlər dinləndi və eyni gün məhkəmə qərarı üzünə oxundu.

Mir Cəfər oğlu Məhəmməd Kərim 1939-cu il martın 15-dən 16-na keçən gecə repressiya qurbanları arasında güllələnərək şəhid edildi. Dini fəaliyyəti və anti-sovet çıxışları ilə rejim əleyhdarı elan edilərək evi talan edilmiş, kitabxanası isə yandırılmışdı. İslam ümmətinə ondan qalan xatirə isə onun çap edilmiş bəzi yazıları oldu. Əsərləri; 1) İran kəndlərinin halı, 2) Təbrizdə gördüklərim, 3) On yeddi Ramazandır. Tərcümə əsərləri isə; 1) Ermənüsə, 2) Özreyi-Qureyş, 3) Kərbəla yanğısı, 4) Fətətu Ğassan, 5) Rəşidin bacısı Abbasə, 6) Əbu Müslüm əl-Xorasani, 7) Səlib müharibəsi, 8) Emin və Məmun qardaşlar.

El ağsaqqalı Abdullah MAHMUDOV:

Azərbaycanda özümüzü heç vaxt yad hiss etməmişik

İrfan: *Abdullah Əfəndi, əvvəlcə özünüz haqqında məlumat verin mümkündürsə.*

Abdullah Əfəndi: 1940-cı ildə Axısxada doğulmuşam. Sürgün vaxtı 3-4 yaşım vardı. O hadisələri qaranlıq xatırlayıram. Amma Özbəkistana gəlişimizi bir az daha aydın xatırlayıram. Hər tərəfdə qar vardı. Qatardan düşüb hər tərəfi açıq olan, lakin üstü örtülü bir yerə toplaşmışdıq. Bizi oradan yerli sakinlərin evlərinə paylaşdırdılar. Amma məsələ burasındadır ki, yerlilər də həddən artıq yoxsulluq içində yaşayırdılar. Bizi kəndlərə göndərdilər. O illərdə atam rəhmətə getdi. Onu da xəyal kimi xatırlayıram.

İrfan: *Atanız rəhmətə gedəndə neçə yaşınız vardı?*

Abdullah Əfəndi: 7-8 yaşım olardı səhv etmirəmsə. Atamın Quran oxumaq üçün istifadə etdiyi rəhil gəlir gözümün qabağına. Başqa heç nəyi xatırlamıram.



İrfan: *O günlərdən yaddaşınızda daha hansı xatirələr qalıb?*

Abdullah Əfəndi: O vaxt indiki kimi elektrik lampaları yox idi. Kartofun ortasını deşib içindən fitil keçirdirdilər. Neft də bir o qədər tapılmırdı. Kimsə bir az neft tapardısa, həmin fitili neftə batırıb yandırardı. Çox zəif işığı olurdu. Amma buna baxmayaraq, bu qədər çətinliklərə sinə gərərək insanlar imanlarını qorumuşdular. Məndən böyük bacılarım, xalam qızları vardı. Quran oxuyurdular. Evin hər tərəfindən külək üfürürdü, yer torpaq idi. Düşünün ki, həmin şəraitdə bir az əvvəl dediyim "lampanı" hündür bir yerdən asardılar. Hamı da yığışardı həmin işığın başına bir təhər Quran oxuyardılar. Bu o dövrdə yaşayanların imanından xəbər verir. Sovetlər kimi din düşməni olan bir dövlətdə bu qədər çətin şərtlərdə öyrənirdik dinimizi. Mən də bir az böyüdükdən sonra anam və bacılarım Quranı öyrətməyə başladılar mənə. Həmin vaxt KQB-yə xəbər vermişdilər ki, filan yerdə Abdullah adında bir qıza Quran öyrədirdilər. Elə bilmişdilər ki, qızdır oxuyan. KQB məni axtarırdı. Anam bundan xəbər tutub Quranı və ayələr yazılmış nə qədər kağız vardısa, hamısını yığışdırıb torpağa basdırdı.

Axıska sürgünündən gözümüz qorxmuşdu deyə Azərbaycana gələndə özümüzlə çadır düzəltmək üçün ağac dirəklər və tent də gətirmişdik. Qış günü idi, yağış-qar yağsa, nə edəcəkdik. Amma Allah azərbaycanlılardan razı olsun. Bizi elə gözəl qarşıladılar ki, sözlə ifadə etmək imkansızdır. Eynilə mədinəlilərin Peyğəmbərimizi və mühacirləri qarşılaması kimi qarşıladılar. Bizə qucaq açdılar.

Quranı bükmək üçün heç nə tapmadıqları üçün birbaşa torpağa basdırmışdılar. Qış çıxdıqdan sonra qazıb görmüşdülər ki, əlimizdə olan Quran da artıq tamamən hədər olub. Son dövrlərə qədər bir cüz qalmışdı əlimizdə xatırlayıram, o qədər köhnə idi ki, əl vursan, dağılardı. Xətm oxumağa Quran tapa bilmirdik. Ordanburdan bir Quran tapmışdıq, onun da çox yeri silinmişdi, ya da cırılmışdı. Olmayan yerləri əlimizlə yazmışdıq. Bəqərə surəsinin demək olar ki, tamamını əlimizlə yazdıq həmin Quranda.

İrfan: *Bu hadisələr Özbəkistanda baş vermişdi?*

Abdullah Əfəndi: Bəli. Çox əziyyət çəkmişik. Yağış yağanda evin içinə damırdı. Bir təhər yağış düşməyən yer tapıb döşəyi ora salırdıq yatmaq üçün. Amma yenə də su damlaya-damlaya yorğan-döşəyə sıçrayıb isladırdı. Anam çox üşüyürdü, titrəyirdi. Yadıma gəlir, yatanda anamın arxasına sığınıb nəfəsimlə onun kürəyini isitməyə çalışırdım. Allaha şükürlər olsun ki, o günlər arxada qaldı. Quran bir inəyin qiymətinə idi o vaxtlar, onu da tapa bilmirdik. O vaxtkı çətinlik illərində camaat imanını qorudu şükürlər olsun. İndi o imandan əsər-əlamət qalmayıb.

İrfan: *Bəs uşaqlarınıza necə, dini təhsil verə bildinizmi?*

Abdullah Əfəndi: Şükürlər olsun, çətinliklə də olsa, onlara dinlərini öyrədə bildik. 1986-cı ildə oğlum Süleyman 3-4-cü sinifdə oxuyurdu. Gecə səhərə yaxın uşaqları oyadırdım, hamı yuxuda ikən onlara xəlvətcə Quran öyrədirdim. Qonum-qonşuda baxırdım ki, Quran öyrədə biləcəyim adam var və məni heç kimə satmaz, onda öyrədirdim. Uşaqların sinif yoldaşları bilməsin deyə çox tədbirlər aldım. Kənd Sovetimiz Əkməl Əkə vardı. Bir gün məni çağırdı yanına, dedi ki: "Abdullah Əkə, sənin haqqında KQB-dən şikayət var. Kimsə ora xəbər verib ki, İslamı yayırsan. Məni çox sorğu-suala tutdu. Gördüm ki, bu qədər sual-cavabın arasında ağzımdan söz qaçıracağam. Konkret dedim ki, mənim ərazimdə elə bir adam yoxdur, əgər tapsanız, nə istəyirsiniz edin. Onları yola saldım, amma sən də çalış çox mərkəzi yerlərdə görünmə, məclislərdə dindən danışma. Yoxsa səni də, məni də aparacaqlar." Şükürlər olsun, bütün çətinliklər arxada qaldı, uşaqları da istədiyim kimi oxutdum.

İrfan: *Əfəndi, dediyiniz kimi kommunist rejimində insanlara dini öyrətmək təhlükəli idi. Sizi həbs edə bilərdilər. Bəs bu qədər təhlükəyə baxmayaraq sizi insanlara Quran öyrətməyə vadar edən ruh nə idi? Nə səbəbə özünüzü fəda edirdiniz?*

Abdullah Əfəndi: Mənim atam da yetim böyüyüb. Əmim atamdan 15 yaş böyük olub. Atamı götürüb qonşu kəndə aparıb oradakı Behcət Əfəndinin yanına vermişdi ki, dini öyrənsin. Behcət Əfəndi 30 il İstanbulda oxumuşdu. Əmim atamın azuqəsini də Əfəndiyə verib atamı ona tapşırmışdı, xahiş etmişdi ki, atamı oxutsun.

Anam həmişə mənə öyüd-nəsihət verərdi ki, sənin atan belə oxuyurdu, namazını belə qılırdı, orucunu tuturdu... Hə-

mişə mənə onu nümunə göstərirdi. Atamı görməsəm də, ona olan sevgim, məhəbbətim o qədər böyük idi ki, özümü ona oxşatmaq istəyirdim. Bax, bu ruh idi məni dinə bağlayan.

İrfan: *Özbəkistandan nə vaxt çıxdınız? Birbaşa Azərbaycana gəldiniz?*

Abdullah Əfəndi: Həmişə demişəm ki, özbəklər pis millət deyil. Lakin Fərqanədə aramıza fitnə toxumları səpdilər və hadisələri qabarda-qabarda bizi qarşı-qarşıya qoydular. 1990-cı ildə Azərbaycana gəldik. 5-6 gün Şamaxının Mədrəsə kəndində qaldıq. Axıska sürgünündən gözümüz qorxmuşdu deyə Azərbaycana gələndə özümüzlə çadır düzəltmək üçün ağac direklər və tent də gətirmişdik. Qışın günü idi, yağış-qar yağsa, nə edəcəkdik. Amma Allah azərbaycanlılardan razı olsun. Bizi elə gözəl qarşıladılar ki, sözlə ifadə etmək imkansızdır. Eynilə mədinəlilərin Peyğəmbərimizi və mühacirləri qarşılaması kimi qarşıladılar. Bizə qucaq açdılar. Ərəbşalbaş kəndində boş evlər vardı, bizi oralara yerləşdirdilər. Şamaxıda çox böyük qonaqpərvərlik gördük. Buradakı hamı doğma bacı-qardaşımız kimi oldu bizə. Şükürlər olsun, hər şey yoluna girdi. Uzun illər burada yaşadıq.

İrfan: *Bəs Türkiyəyə nə vaxt getdiniz?*

Abdullah Əfəndi: 2000-ci illərdə bizimkilər Türkiyəyə köçməyə başladı. Biz də 2002-ci ildə köçmək qərarına gəldik. Kəndin tanınmış ağsaqqalı Rizvan kişi vardı, rəhmətlik. Onunla məsləhətləşdim. Dedi ki, "Abdullah Əfəndi, burda sizə gözün üstə qaşın var deyən olmaz. İstədiyiniz qədər qalın, amma məncə imkan var, gedin. Yaxşı olar." 2002-ci ildə böyük oğlum köçdü, 2004-cü ildə də biz köçdük. Həmişə demişəm, yenə də deyəcəyəm, biz Azərbaycanda özümüzü heç vaxt yad hiss etməmişik, ənsarların mühacirləri qarşılaması kimi qarşılanmışıq.

İrfan: *Darıxırsınız buralar üçün?*

Abdullah Əfəndi: Heç vaxt unutmaram. Arada fürsət tapan kimi burdakı qardaşlarımı ziyarətə də gəlirəm.

İrfan: *Abdullah dayı, bütün İrfan oxucuları adından sizə təşəkkür edirik.*

Abdullah Əfəndi: Mən də öz növbəmdə bütün Azərbaycan xalqına təşəkkür edirəm.

Hazırlayan: Ömər MƏMMƏDOV

QİYAMƏT XƏBƏRDARLIĞI

Cibimizdə və ya qolumuzdakı saat namazın vaxtını göstərdiyi kimi sanki əvvəlcədən bilməmiz mümkün olmayan bir əqrəb halında "qiyamət"i də göstərəcəkdir. Hörümçəklərin hördükləri bu qədər tordan, ağacların verəcəkləri bu qədər meyvədən, suların bu qədər axışından, dənizlərin bu qədər qabarmasından, günəş, ay və ulduzların bu qədər doğuş və batışından, bu qədər şəhid ölümündən sonra bir gün, bir saatda ciblərimizdəki saat "qiyamət!" deyib dayanacaqdır. Sanki cibimizdəki saat qiyamətin qəlbi kimi hər an atır, eşidib qulaq verən necə də xoşbəxtdir!

Quran qiyaməti tez-tez xatırladır. Belə ki, səhabə qiyamətin bu gün-sabah qopmasından təşvişə düşmüş, həyəcanlanmışdır. Məhz İslamdakı qiyamət düşüncəsinin digər dinlərdəki qiyamət inancından fərqi burada ortaya çıxır. Digər dinlərdə qiyamət kainatın sonuna aid məlumat və xəbər olmaqdan başqa bir şey deyil. İslamda isə qiyamət inancı və hissi həyatın içinə girər və bir növ "qiyamət şüuru" halına gəlir. Bu şüurda olan müsəlman hər saat Yaradıcının qarşısına çıxacaqmış kimi bir hazırlıq içindədir. Yəni, qiyamət elə həyatla iç-içədir ki, həyatı formalaşdırır və müsəlmanı hər anını şüurla izləyən, öz-özünün gözətçisi halına gətirir.

Qiyamət müsəlmanın içində, onun hər davranışını qeyd edən bir növ ikinci mələk kimidir, onunla birlikdədir, ondan qopmaz və ayrılmaz. Digər dinlərdə bədbinliyə və hərəkətsizliyə və ya dünyaya sitayişə sövq etdiyi halda, İslamda həyatı canlı tutan daxili bir naxışdır. Ölümdən əvvəl gələ biləcək külli bir ölüm kimi müsəlman şüurunun metafizik özəyi bu dünyada o biri dünyanın bir mayasıdır.

Qiyamət inancın yarısı olan səbir ağacına su verir.

Quran qiyamət hadisəsini "saat" kəlməsi ilə nəql edir. Sonra həmin saat kəlməsi vaxtın ölçüsü, ölçü vahidi olmuşdur. Sanki hər an gələ biləcək olan qiyamət vaxtın ta özü olmuşdur və müsəlman içində olduğu axışı onunla təyin edəcəkdir.

Cibimizdə və ya qolumuzdakı saat namazın vaxtını göstərdiyi kimi sanki əvvəlcədən bilməmiz mümkün olmayan bir əqrəb halında "qiyamət"i də göstərəcəkdir. Hörümçəklərin

hördükləri bu qədər tordan, ağacların verəcəkləri bu qədər meyvədən, suların bu qədər axışından, dənizlərin bu qədər qabarmasından, günəş, ay və ulduzların bu qədər doğuş və batışından, bu qədər şəhid ölümündən sonra bir gün, bir saatda ciblərimizdəki saat "qiyamət!" deyib dayanacaqdır. Sanki cibimizdəki saat qiyamətin qəlbi kimi hər an atır, eşidib qulaq verən necə də xoşbəxtdir!

Qiyamətin yaxınlığı və ya uzaqlığı ümid və ümidsizlik gətirən bir şey deyil əslində. Əsli pozulmuş, təməlləri laxlamış dinlər qiyamət xəbərləri ilə insanları bir xərçəng xəstəsinin ruh halına salırlar. Bununla da ya dünyadan tam qoparır, ya da dünyaya çılğınlıqla bağlanırlar. İslamda isə qiyamət istər uzaq olsun, istər yaxın bir saat sonra olacaqmış kimi o biri dünya hesabına hazır olma şüurunun ilk mənbəsi və gözlə görülmə halıdır.

Sapsağlam ikən qəlb çatışmamazlığından ölənlər var. Qiyamət bir növ kainatın qəlbinin dayanmasıdır.

Xəstəliklər ölümün səbəbi deyil, nişanələridir. Xəstəliklər gəldi deyə ölüm gəlməz, bəzən ölüm gələcək deyə xəstəliklər xəbərçi olaraq gəlir. Nəticədə ölüm yoxdursa, hətta xəstəlik yeni bir səhhətə başlanğıc sayıla bilir.

Bir eşqdən doğmuş bir varlığın yenə bir eşqə dönüşü, bir qurban kimi geri çevrilişi deməkdirsə qiyamət, səfərin mütləq ölüm şərtlərində olmasına ehtiyac yoxdur. Xəstə heyvan qurban edilməz.

Müsəlman Yaradana təslim olmuş şəxsdir. Hər an Onun qiyamətinə də özünü təslim etməyə hazır şəxs...

Müsəlman bədənində qiyamət gəzdirən, o biri tərəfin sarsıntısını duymamış şəxslərə bir qiyamət aşılayan və onları ən şiddətli bir qiyamətlə sarsan bir qiyamət adamıdır.

Bu yazı Sezai Karakoçun "Kıyamet Aşısı" adlı kitabından ixtisarla hazırlanmışdır.

QİYAMƏT

Anmazmısan sən şol günü
Cümlə aləm üryan ola
Nə ata oğula baxa,
Nə qardaşdan dərman ola

Dağlar yerindən ayrıla
Heybətindən göy yarıla
Yıldızın bəndi qırıla
Yerə düşə pərran ola

Malik tamuya çağıra,
Zəbanilər səf-səf dura
Qorxusundan yer yarıla,
Titrəyibən heyran ola

Malik edər hey hey
Tamu qiyaməti gördün yəni
Asiləri gətirələr girə
Səndə pərran ola

Zəbanilər yetib tuta
Gətürə tamuya ata
Dəri yanıb sökük tuta
Dün gün işin əfqan ola

Yunus, sənin ki, bu sözün
Qan-yaş ilə doldu gözün
Ol həzrətə tuta üzün,
Yenə dərman andan ola.

Yunus ƏMRƏ

Aqil ƏLİYEV
aqil_77@box.az

Bidət

Bidət termin olaraq əslində dində olmayan bir şeyi sonradan dinə daxil etməkdir. Dinimizdə bu işə İslam dinindəki ilahi qanunlara təcavüz kimi baxılır. Müqəddəs İslam dinində ilahi qanuna ehtiram göstərmək ən mühüm məsələlərdən biridir. Hər kəs ilahi qanuna etinasızlıqdan və yaxud ona əl gəzdirib, onu dəyişdirməkdən ciddi surətdə çəkinməlidir. Bidət mövzusu Rəsulullahın (s.ə.s) həyatı ilə ciddi məşğul olan, sünnəni və hədisi tədqiq edən İslam alimləri arasında geniş müzakirə edilmişdir. Bu müzakirələr nəticəsində də fərqli fikirlər və anlayışlar ortaya çıxmışdır. Jurnalımızın ana mövzusu xürafata ayrılmışkən, son vaxtlar gündəmdə olan bu məsələyə Allahın köməyi ilə bir az açıqlıq gətirmək istədik.

Alimlər bidəti geniş və dar mənalı olaraq iki ayrı şəkildə ələ almışdır. Geniş mənada ələ alanlar başda İmam Şafei, İmam Nəvəvi, İbni Abidin olmaqla bidəti qısaca belə bir tərif etmişlər;

"Bidət Rəsulullahdan (s.ə.s) sonra ortaya çıxan şeylərdir."

Bu tərifə görə dini xüsusiyyət daşıyan əməl və davranışlarla birlikdə, gündəlik hayatımızla əlaqəli olaraq sonradan ortaya çıxan yeni fikirlər, düşüncələr və adətlər də bidət qəbul edilmişdir. Bu alimlər öz fikirlərinə sübut olaraq bu hədisi irəli sürürlər:

"Kim mənim bir sünnəimi əhya edərək insanların onunla əməl etmələrinə vəsilə olarsa, o insanların qazanacağı savablardan heç bir şey əskilmədən onların savab-

larının eynisini alacaq. Hər kim də bir bidət çıxararaq onunla əməl edilməsinə səbəb olarsa, o bidət ilə əməl edənlərin günahlardan heç bir şey əskilmədən onların günahlarının eynisini almış olacaq." (İbni Macə, Müqəddimə, 15)

Bu təriflə də adlarını yuxarıda qeyd etdiyimiz alimlər bidəti **həsənə** və **seyyiə** olaraq iki yerə ayırır, edilməsi qadağan olunmayanlara ***bidəti-həsənə (gözəl bidət),*** edilməsi qadağan olunanlara da ***bidəti-seyyiə (çirkin bidət)*** demişlər. Minarə və mədrəsə tikmək, məscidlərdə səsyüksəldicidən istifadə etmək, cümədən əvvəl vəz vermək bidəti-həsənə, qəbirlərin üstünə hündür daşlar qoymaq, şəkil həkk etmək, oralarda qurbanlar kəsmək, şam yandırmaq, sap bağlamaq isə bidəti-seyyiə qəbul edilmişdir. Bu alimlər hədislərdə rədd edilən bidətlərin çirkin bidətlər olduğunu söyləmişlər.

İmam Nəvəvi Müsilimin şərhində *"Hər bidət zəlalətdir."* (Müslim, Cuma, 43) hədisini izah edərkən belə deyir: *"Bu hədis ümum bildirir. Buna bənzəyən hədislər də belədir. Ömərin (r.a) təravih haqqında; "Bu nə gözəl bidətdir" deməsi bizim dediklərimizi qüvvətləndirməkdədir. Rəsulullahın (s.ə.s) "Küllü bidətin dalələtun" ifadəsi ilə qəsd etdiyi: "Əksər bidətlər zəlalətdir"* mənasındadır.

Hətta bəzi İslam alimləri bidəti vacib, məndub, haram, məkruh və mübah olmaqla beş qismə ayırıblar. Məsələn:

1. Kəlam alimlərinin üsuluna görə dəlillər tərtib edib, dinsizlərə və yolunu azmış etiqadi firqələrə cavab vermək vacib,

2. Elmi kitablar nəşr etmək, məktəblər və təhsil ocaqları açmaq məndub,

3. Müxtəlif yeməklər və cürbəcür halal içkilərdən istifadə etmək mübah,

4. Qəbirlərin üstünə daşlar qoymaq, şam yandırmaq məkruh,

5. Dindən olmayan hər hansı bir şeyi sanki dindənmiş kimi göstərərək insanları o işə rəğbət etdirmək isə haram bidətlərdəndir. Qəbirlərə qurban kəsmək kimi.

Bidəti dar çərçivədə ələ alan, başda İmam Malik olmaqla Ayni, Beyhəqi, İbni Həcər, Heytəmi, İmam Birgivi və İbn Teymiyyə kimi alimlər isə bu tərifi vermişlər:

*"**Bidət**- Rəsulullahdan (s.ə.s) sonra ortaya çıxan, dinlə əlaqəli olub, əlavə və ya əskiltmə xüsusiyyəti daşıyan hər şeydir."* Bu alimlərə görə dinlə əlaqəsi olmayan və dini bir xüsusda olmayan yeniliklər bidət sayılmaz. Bu baxımdan örf və adət növündən olan davranışlar bidət sayılmaz. Bu fikri sübut etmək üçün isə aşağıdakı dəlilləri irəli sürmüşlər:

"İşlərin ən pisi sonradan ortaya çıxarılanlardır" (Müslim, Cuma, 4)

"Din adına sonradan ortaya çıxarılan işlərdən çəkinin. Həqiqətən sonradan ortaya çıxarılan hər şey bidətdir və hər bidət də zəlalətdir. Bu zaman sizin edəcəyiniz iş mənim sünnələrimə və bir hidayət və irşad rəhbəri olan xəlifələrimin sünnələrinə sarılmanızdır." (Əbu Davud, Sünnə, 5)

Eyni fikri mənimsəyən fiqh üsulu mütəxəssisi əş-Şatibi isə bidəti "Sonradan ortaya çıxan dinə oxşayan yol" olaraq tərif etdikdən sonra mövzuya belə açıqlıq gətirir: *"Bidəti dindənmiş kimi qəbul edərək bu yoldan getmələrinin səbəbi, Allaha çox qulluq etmək istəmələridir. Bununla yanaşı dinə oxşarlığı olmayan və dindənmiş kimi qəbul edilməyən şeylər bidət sayılmaz. Məsələn, bir şəxsin halal olan bir şeyi özünə qadağan etməsi bidət deyildir, ancaq bu qadağanı dindarlıq düşüncəsi ilə etməsi bidətdir." Eyni zamanda Şatibi "gözəl və ya çirkin" bidət ifadəsini qəbul etmir.* (İbrahim ibn əl-Musa əş-Şatibi, əl-İtisam; DİA, "Bidət" maddəsi)

İlham SOVQATOV

Yeni il köhnə dərdlər və yeni ümidlər

Hal-hazırda 2013-cü ilə yeni qədəm basmışıq. Köhnə il- 2012-ci ili yola saldıq. Həyat təqvimimizdən bir yarpaq da qoparıb tarixə gömdük. Ömrümüzün acılı-şirinli günlərinin bir hissəsini də 2012-ci ildə yaşadıq. Köhnə ili yola salarkən köhnə dərdlərlə yanaşı yeni ümidlərlə yeni ili qarşıladıq. Bu, hər ilin başlanğıcında təkrarlanan prosesdir. İli başa vurub yeni ili qarşılayırıq. Təqvimdə rəqəmlər dəyişir. Ancaq insanların əhval-ruhiyyəsi görəsən, nə qədər dəyişir? Dəyişən təkcə təqvimdirmi, yoxsa insan həyatı da dəyişir? Təqvimin dəyişməsi insan həyatına nə qədər təsir edir? Təqvimin dəyişməsi ilə insanların xoşbəxtliyi artırmı? Yeni il gəldiyi zaman köhnə dərdlər unudulurmu? Yeni il özü ilə yeni ümidlər, yeniliklər gətirirmi? Yoxsa özü ilə yeni dərdlər, yeni problemlər gətirir? Bu sualları istədiyimiz qədər artırmaq mümkündür. Ancaq nəticə etibarilə dəyişən yenə təqvimdir.

İnsanın əhval-ruhiyyəsi sadəcə bir neçə gün yüksək olur. Bir neçə gün yeni ili şənliklə, təmtəraqla qarşılayırıq. Dərdli-dərdsiz, problemli-problemsiz insanlar belə özünü xoşbəxt göstərirlər. Hər kəsin üzündə gülüş olur. Bu, ilk baxışdan adama elə təsir bağışlayır ki, hər kəs yeni ilin gəlişinə sevinir, yeni ili qarşıladığına görə xoşbəxtdir. Ancaq əslində bir çox insana yeni ilin gəlişi heç maraqlı da deyil. Belə insanlar əsasən dərd əlindən, problem əlindən bezar olanlardır. Kimisinin köhnə ildə problemi üst-üstə artmışdır. Kimisinə köhnə il uğurlu olmuşdur. Kimisi köhnə ildə yaxınını itirmiş, kimisinin də ya övladı olmuş, ya da ailə həyatı qurmuşdur. Kimiləri üçün də köhnə il bir kabus kimi onu məngənəyə salmışdır. Bütün bunlar insanların əhval-ruhiyyəsinə təsir edən amildir.

Yeni il problemlərin heç birini həll etmir. Bu problemləri həll edən insanın əzmkarlığıdır. İnsanlar təqvim meydana gətirdilər, həyatı böldülər, zaman məfhumunu məhdudlaşdırdılar. Bu da bir həqiqətdir ki, zaman insanı dəyişir. Bəli, insan doğulduğu vaxtdan etibarən ölümə doğru gedir. İnsan zamanın necə keçdiyini sadəcə özünə güzgüdə baxdığı vaxt görə bilir. Bir zamanlar güzgüdə özünü uşaq gördüyü halda, bir vaxtda da özünü cavan,

Yeni il yeni həyat demək deyil. Sadəcə insanların şüurunda müəyyən zaman məfhumundan digər zaman məfhumuna keziddir. Dərd orasıdır ki, yeni ili təmtəraqla qarşıladığımız halda bu yeni il bizim problemlərimizi təmtəraqla həll etmir. Ona görə də yeni ili həmişə olduğu kimi köhnə dərdlərlə və yeni ümidlərlə qarşılayırıq və bundan sonra da ömrümüzün yetdiyi qədər də belə qarşılayacağıq.

gənc və qoca görəndə artıq zamanın keçdiyini anlayır.

Bəzən insanlar yeni ili heç arzulamırlar. İnsanların arzuladığı təqvimin dəyişməsi deyil, həyat şəraitinin dəyişməsidir. İnsanlar rahat həyat axtarırlar. İnsanlar öz arzularına, istəklərinə qovuşmaq istəyirlər. Dərdli adamlar üçün nə fərqi var ki, yeni il gəldi, köhnə il getdi. Əsas odur ki, köhnə dərdlər getsin, onun yerini yeni ümidlər, xoşbəxtlik tutsun. İnsanlar təqvimdə rəqəmlərin dəyişməsini yox, həyat şəraitinin gözəlləşməsini istəyirlər. Hər kəs rahat yaşasın, hər kəs öz istəyinə qovuşsun. Bəli, insanlar əsas bu istiqamət üzrə özləri üçün yeni il münasibətilə şənliklər qururlar. Ancaq nəticə etibarilə dəyişən yenə təqvim olur. Yeni il gəlir, ancaq köhnə dərdlər, köhnə problemlər getmir. Bəlkə də bir az da çoxalır. Çünki həyat şəraiti get-gedə çətinləşdikcə çətinləşir. Yeni ümidlər sadəcə xəyallarda, ürəklərdə qalır. Sadəcə müəyyən bir hissəsi həyata keçir.

Yeni il yeni həyat demək deyil. Sadəcə insanların şüurunda müəyyən zaman məfhumundan digər zaman məfhumuna keçiddir. Dərd orasıdır ki, yeni ili təmtəraqla qarşıladığımız halda bu yeni il bizim problemlərimizi təmtəraqla həll etmir. Ona görə də yeni ili həmişə olduğu kimi köhnə dərdlərlə və yeni ümidlərlə qarşılayırıq və bundan sonra da ömrümüzün yetdiyi qədər də belə qarşılayacağıq.

Deməli, köhnə il özü ilə köhnə dərdləri, köhnə problemləri aparmır. Əksinə, onları bizə yadigar qoyub özü gedir.

Utansın

Toxum saç, bitməzsə torpaq utansın!
Hədəfə varmayan mizraq utansın!

Hey gidi küheylan, qoşmana bax sən!
Çatlarsan, doğuran qısraq utansın!

Əski çinar indi noel ağacı;
Dallarda iyrəti yarpaq utansın!

Ustada qalırsa bu öksüz yapı,
Onu sürdürməyən çıraq utansın!

Ölümdən ötədə varış dediyin,
Geridə nə varsa, burax utansın!

Ey min bir danədə solmayan tək rəng;
Bayraqlaşamıyorsan bayraq utansın!

Necip Fazıl Kısakürek



Mübariz ƏLİOĞLU

ALLAHI MURAD ETMƏK

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər. Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəblərinə təvəkkül edər, (vaxtlı-vaxtında) namaz qılar və verdiyimiz ruzidən (Allah yolunda) sərf edərlər. Onlar həqiqi möminlərdir. Onların öz Rəbbi yanında dərəcələri vardır. Onları (Qiyamət günü) bağışlanma və (Cənnətdə) tükənməz ruzi gözləyir." (əl-Ənfal, 2-4)

İlahi rəhmətin bitib tükənmək bilməyən mərhəmət təcəlliləri nə son dərəcədə həssaslıq və ülvi bir ehtirasla yanaşan möminlər zümrəsinin dünyanın, nəfsin, arzuların zahirən gözəl, daxilən isə fitnəkar cazibəsinə aldanmayaraq Rəbblərini içdən gələn bir istəklə murad etmələri Allah-Təalanın sonsuz ehsanına qarşı sərgilənən bir mömin sədaqətidir. Bu muradın və bu sədaqətin illərlə sınanmış nümunələri bu gün də bəşər övladlarını Allahı murad etmə elminə talib olmağa səsləyən əvəzsiz bir örnəkdir. Bu örnəyin baş tacı olan Rəsulullahın Rəbbini həyatı boyu, xüsusən də ömrünün ən mürəkkəb anlarında bütün varlığı ilə murad etməsi və ümmətini də buna dəvət etməsi qəlbləri oyandıracaq ölçüdədir. İnsanları imana dəvət etmək üçün getdiyi Taif yolçuluğunda aldığı fiziki və mənəvi yaralara baxmayaraq Rəbbinə etdiyi yalvarışlarında Rəsulullahın muradı qəti idi:

"İlahi! Əgər mənə qarşı qəzəbli deyilsənsə, çəkdiyim ağrılara, bəlalara heç əhəmiyyət vermərəm. Fəqət Sənin lütfün və ehsanın mənim üçün daha genişdir. İlahi! Qəzəbinə uğramaqdan, rizasızlığına düçar olmaqdan Sənin Nurlu Vəchinə sığınıram. İlahi! Sən razı olana qədər əfvini diləyirəm. Bütün qüvvət, hər qüdrət ancaq Səndəndir, ya Rəbbi!" (İbn Hişam, II, 30)

Uca Rəbbimiz Özünü mənalı və gözəl şəkildə murad etmə mükəlləfiyyətini Rəsullarına bildirmişdir. Bu, iman əhli üçün xüsusi əhəmiyyət kəsb edən məqamlardandır. Rəvayət edildiyinə görə Əziz və Cəlil olan Allah Hz. Musaya (ə.s) belə vəhy etmişdir:

"Ey Müsa! Mənə dua etdiyin zaman dilini qəlbinə tabe et. Məni zikr edərkən xüşu içərisində və xatircəm ol. Hüzurumdan qalxdığın vaxt

zəlil bir şəkildə qalx və nəfsini qına. Çünki o, qınanmağa ən layiq olandır. Mənə yalvardığın zaman titrəyən bir qəlb və doğru bir dil ilə yalvar."

Rəsulullahın (s.ə.s) hədislərindən birində: -*"Bir qulun namaz, oruc, zəkat, həcc, ümrə, gözəl əxlaq, təfəkkür, zikr kimi əməlləri göyə yüksəlir. Göy mələkləri onu gözəl bir şəkildə müşayət edərək Allahın hüzuruna yüksəldərlər və yalnız Allah rizası üçün xalis əməl olduğuna şəhadət edərlər. Allah-Təala: -"Siz qulumun əməllərini mühafizə edənsiniz. Mən isə onun bütün incəliklərini bilənəm. O, bu əməl ilə Məni murad etmədi, başqasına göstəriş məqsədilə etdi. Mənim lənətim onun üzərinə olsun." Mələklərin hamısı, yer və göylər də bu ilahi qəzəb buyuruğuna həmrəy olar."* -deyə buyurduğu məqamları, xüsusən də mələklərin belə şəhadətinin müəyyən hallarda keçərsizliyi kamillik zirvələrinə doğru irəliləyən Mövlana Cəlaləddin Rumini diqqətlə düşünməyə vadar etmişdir. Mənəvi təkamül pillələri ilə addımlayan Mövlananın yaşadığı hal və məkan dəyişmələri ibrətamiz üslubu ilə bizi Rəbbimizə yaxınlaşdıran bir bərəkətdir. Mövlana belə buyurur:

İlahi rəhmətin bitib tükənmək bilməyən mərhəmət təcəlliləri son dərəcədə həssaslıq və ülvi bir ehtirasla yanaşan möminlər zümrəsinin dünyanın, nəfsin, arzuların zahirən gözəl, daxilən isə fitnəkar cazibəsinə aldanmayaraq Rəbblərini içdən gələn bir istəklə murad etmələri Allah-Təalanın sonsuz ehsanına qarşı sərgilənən bir mömin sədaqətidir.

"İnsanlıqdan və insan olmaqdan da bir həmləyə baş vurum. Mələklər aləmində onların arasına qarışım, onlarla o aləmdə qol-qanad açım."

Bir müddət sonra isə irfan nurları ilə bişən Mövlananın könül aləmi həqiqi muradını əldə etmək axtarışındadır:

"Artıq mələklər aləmindən də bir qurtulma, bir çıxış yolunu axtarmalıyam. Hara qədər? ***"Allahdan başqa heç bir tanrı yoxdur. Allahdan başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz məhz Onun hüzuruna qaytarılacaqsınız."*** *(əl-Qəsəs, 88) məqamına qədər. Çünki Onun həqiqi Zatından başqa hər şey xəlq edilmişlərdən ibarətdir. Hökm Onundur, hər şey Ona dönər, Ona gedər."*

Bu kamillik zirvəsinin canlı bir nümunəsi olaraq bütün fani əlaqələrdən sıyrılaraq Rəbbini qibtə ediləcək bir şövqlə murad etmə mərtəbəsinə ermiş Haqq aşiqi Yusif Həmədani həzrətlərinin son nəfəsində söylədiyi könülləri Allaha bağlayan bir dəvətdir:

"Allahın elə dostları vardır ki, onların can verməsini Allahdan başqa kimsə bilməz."

Uca Rəbbimizin nəzdində Onu murad edənlərin qiyməti o qədər yüksəkdir ki, Allah-Təala Rəsuluna anladılan kimsələri yanından ayırmamasını və onları özündən uzaq tutmamasını ciddi şəkildə əmr edir:

"(Ya Rəsulum!) Rəbbinin rizasını diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma." (əl-Ənam, 52)

"Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar. Fani dünyanın bərbəzəyini arzu edib nəzərlərini onlardan çevirmə." (əl-Kəhf, 28)

Rəsulullahın mübarək duaları Allahı murad etmənin incəliklərini ümmətə ərz edən tükənməz bir xəzinədir. Bu xəzinənin hər bir cümləsi, hər bir söz əbədi səadətə aparan yolların işarətləri olaraq Adəm övladlarını Allahı murad etmə sənətinə həssaslıqla yiyələnməyə səsləyən nəbəvi bir çağırışdır:

"Allahım! Qəlblərimizi xeyir üzrə istiqamətləndir, aramızı düzəlt, bizi səlamət yollarına təşviq et və bizi qaranlıqlardan qurtarıb nuruna qovuşdur. Allahım! Səndən bitməyən nemət istəyirəm. Səndən qəzadan sonra rizanı istəyirəm. Səndən kəsilməyən göz aydınlığı diləyirəm. Cəmalına baxmaq və Sənə qovuşmağın ləzzətini diləyirəm. Heç kimsənin zərərinə uğramamağı və yoldan çıxaran fitnəyə düçar olmamağı diləyirəm. Bizi iman nuru ilə bəzə. Bizi hidayətə nail olan doğru yolu göstərənlərdən et! Amin..." (Nəsai, 62/2).

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR -Loğman Həkim عليه السلام- 4

Loğman عليه السلام buyurur:

"Oğlum! (Haqqın) vəd etdikləri sürətlə sizə sarı gəlir. Siz də qaçaraq axirətə sarı gedirsiniz. Dünya sizdən ayrılmaq üçün arxasını çevirib gedir, axirət isə sizə sarı (qaçaraq) gəlir. Şübhəsiz ki, özünə doğru getdiyiniz (sonsuzluq) diyarı içindən çıxıb ayrıldığınız (fanilik) diyarından sizə daha yaxındır."[1]

[İnsan oğlunun həyat macərası başlı başına bir ibrət səhnəsidir: İnsan dünyaya heç bir şeyi olmadan gəlir. Dünyaya aid heç nəyi də özü ilə apara bilməz. Rəbbimiz biz qullarını fani dünyanın bər-bəzəkli cazibələriylə sınayır. Mənəvi tərbiyədən keçməmiş bir insan bu gerçəyi bilə-bilə dünyaya meyil salaraq ehtirasa qapılır. Bir gün vidalaşacağı şeylər uğrunda ilahi sərhədləri tapdalayır. Sonsuzluq diyarı olan axirətini məhv etmək bahasına fanilik diyarı olan dünyasını abadlaşdırmaqla məşğuldur.

Allah-Təala mənə ömür təqvimindən yeni bir səhifə açdı. Halbuki bu yeni fürsəti bir çoxlarına vermədi. Dünən həyatda olan bir çox insan bu gün artıq yoxdur. Bu yeni gün məni dünyadan bir gün daha uzaqlaşdırdı, axirətə isə bir gün daha yaxınlaşdırdı. Aldığım hər nəfəs məni son nəfəsə yaxınlaşdırır. O halda bu günümü necə qiymətləndirməli, bugünkü səhifəmi nələrlə doldurmalıyam?

Halbuki bütün fani nemətlər bir adamın olsa və həmin adam zövq-səfa içində min il yaşasa, nə xeyri! Sonunda gedəcəyi yer bu quru torpağın dar bir çuxuru deyilmi? Dünya vəfasızdır; verdiyi hər şeyi bir gün mütləq geri alar. Bəndəyə isə yalnız hesabı və əzabı qalar. Beləliklə axirətdən xəbərsiz yaşanan bir dünya həyatı səadət və səltənət içində keçmiş olsa belə, əslində əbədiyyət iflasından başqa nədir ki?!

Əsil səadət bu fani dünyada Allah-Təalanın razılığını, məhəbbətini və dostluğunu qazanaraq əbədi həyata səlim bir qəlb ilə köçə bilməkdir. Əsil ağıllı insan da ölümü yadından çıxarmayan və axirətdə getmək istədiyi yerə görə bu gündən hazırlıq görən kimsədir. Çünki Haqq-Təala belə buyurur:

"Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə (axirət üçün özünə nə hazırladığına) nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır!" (əl-Həşr, 18)

Digər tərəfdən Haqq-Təala **"fəcrə and olsun"** buyuraraq bütün məxluqatın yeni bir günə oyandığı o böyük ana and içir. Demək ki, Rəbbimiz o anın hikmətlərinə diqqət edib, onun təfəkküründə dərinləşməmizi istəyir. Biz də hər şəfəq vaxtı belə bir təfəkkür iqliminə girməliyik:

Allah-Təala mənə ömür təqvimindən yeni bir səhifə açdı. Halbuki bu yeni fürsəti bir çoxlarına vermədi. Dünən həyatda olan bir çox insan bu gün artıq yoxdur. Bu yeni gün məni dünyadan bir gün daha uzaqlaşdırdı, axirətə isə bir gün daha yaxınlaşdırdı. Aldığım hər nəfəs məni son nəfəsə yaxınlaşdırır. O halda bu günümü necə qiymətləndirməli, bugünkü səhifəmi nələrlə doldurmalıyam? Çünki Kiramən-katibin mələklərinin yazaraq doldurduğu gündəliyim ilahi məhkəmədə istifadə olunacaq şəxsi işim kimi qiyamətə göndəriləcək…

Beləliklə, gerçək həyatın axirət olduğunu və bu fani dünyaya axirəti qazanmaq üçün göndərildiyimi əsla unutmamalıyam. Bu günümün son günüm ola biləcəyi şüuruyla yaşamalı, hər nəfəsi son nəfəs bilməliyəm.

"Sabah edərəm deyənlər həlak oldu" -buyurulur. Sabah sağ olub-olmayacağım məchuldur! Rəsulullah ﷺ də: *"Namazını (dünya ilə) vidalaşan bir kimsənin namazı kimi qıl!.."* -buyurur.[2] O halda bu gün namazlarımı bu ruh halına sahib olaraq xüşu ilə qılmalı, maddi-mənəvi borclarımı ödəməli, üzərimdə haqqı olanlarla halallaşmalı, heç kimi incitməməli, heç kimdən də inciməməli, ətrafıma daim rəhmət saçmalıyam. Nəhayət, dünyaya vida edən bir adam kimi həssas və rəqiq qəlbə sahib olmalıyam…]

Loğman علیه السلام buyurur:

"Ey oğlum! Ticarətin Allaha itaət olsun ki, sərmayə qoymadan davamlı qazanc əldə edəsən!"[3]

[Dünya həyatının ən qazanclı anları Allaha itaət halında keçirilən vaxtlardır. Dünyadakı ən sərfəli ticarət də fani olanı verərək baqi olanın qazanıldığı ticarətdir. Bu səbəblə möminin ən böyük bəxtiyarlığı Allahın əmrlərinə tam bir təslimiyyət göstərərək saleh bəndə olmaqdır.

Haqqa qul olan Onun məxluqatına qul olmaqdan xilas olar, həqiqi azadlığa qovuşar. Əks halda insan zalım insanların qulu-köləsi, malın və mülkün əsiri, nəfsani arzuların zəbunu olmaqdan xilas ola bilməz. Bu əsarətlərdən yeganə qurtuluş fidyəsi isə nəfsini Allaha ram edərək Onun əmrlərinə tamamilə təslim olmaqdır. Mömin üçün dünya həyatında bundan daha qazanclı və sərfəli bir ticarət yoxdur. Çünki nəfsini Allaha satan, yəni həva və həvəslərindən imtina edərək ilahi əmrlərə təslim olan kəs dünyadan da nəsibini alar. Lakin özünü dünyaya ram edən insan Allahın rizasından məhrum qalar. Necə ki, ayeyi-kərimədə belə buyurulur:

"Kim axirət qazancını (savabını) istəyirsə, onun qazancını artırar, dünya mənfəəti istəyənə də ondan verərik. Onun axirətdə heç bir payı yoxdur". (əş-Şura, 20)

Dünya həyatında Allahın rizası yerinə dünyəvi mənfəətlər üçün çalışıb əldən düşən qafillər haqqında da Qurani-Kərimdə: **"Əlləşib-vuruşmuş, lakin boş yerə yorulmuş"** (əl-Ğaşiyə, 3) buyurulur. Bu acı aqibətə düçar olmamaq üçün aşağıdakı ayeyi-kərimənin məzmununa girmək lazımdır:

"Allah, şübhəsiz ki, möminlərin canlarını və mallarını (vəd edilmiş) Cənnət müqabilində satın almışdır..." (ət-Tövbə, 111)

Rəvayətə görə bu ayeyi-kərimə Məkkədə ağır əziyyətlər altında tövhid mübarizəsi verən Hz. Peyğəmbəri öz diyarlarına dəvət edən mədinəli möminlərin Aqabədə etdikləri beyətdən sonra nazil olmuşdur. Bu beyətdə mədinəlilərdən **Abdullah bin Rəvaha** ﷺ ayağa qalxaraq:

"- Ya Rəsulallah! Rəbbin və özün üçün bizə istədiyin şərti qoşa bilərsən", -dedi. Rəsuli-Əkrəm ﷺ belə buyurdu:

"- Rəbbim üçün şərtim, Ona ibadət etməniz və heç bir şeyi Ona şirk qoşmamanızdır. Özüm üçün şərtim isə canlarınızı və mallarınızı necə qoruyursunuzsa, məni də eləcə qorumanızdır."

Mədinədən gələn mübarək səhabə topluluğu:

"- Bunun müqabilində bizi nə gözləyir?", -deyə soruşdu. Həzrət Peyğəmbər ﷺ cavab verdi:

"- Bunun müqabilində sizi cənnət gözləyir!". Oradakılar:

"- Bu, necə də sərfəli ticarətdir! Bundan nə dönərik, nə də dönülməsini istəyərik!", -dedilər. (İbni Kəsir, Təfsir, II, 406)

Allah-Təala ən gözəl və ən qazanclı ticarəti belə tərif edir:

"Allahın Kitabını oxuyan, namaz qılan, özlərinə verdiyimiz ruzilərdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət (savab) umarlar ki, (Allah) onlara (əməllərinin) mükafatlarını versin və Öz lütfündən (kərəmindən) onlara artırsın!.." (əl-Fatir, 29-30)

Ayeyi-kərimələrdə xəbər verilən əbədi qurtuluş vəsiləsi olan ticarətin ilk addımı Qurani-Kərimi oxumaq, oxutmaq, həyatımızı onun ölçülərinə görə tənzimləmək, Quran həqiqətləriylə incə, dərin və zərif bir ruha sahib ola bilməkdir. İkincisi isə, namazı iqamə etməkdir. Yəni namazda Allahla görüşə bilməkdir.

Bu ayeyi-kərimələrdə xəbər verilən əbədi qurtuluş vəsiləsi olan ticarətin ilk addımı Qurani-Kərimi oxumaq, oxutmaq, həyatımızı onun ölçülərinə görə tənzimləmək, Quran həqiqətləriylə incə, dərin və zərif bir ruha sahib ola bilməkdir.

İkincisi isə, namazı iqamə etməkdir. Yəni namazda Allahla görüşə bilməkdir. Allah-Təala daim bizimlə olduğunu bildirir. Bizim də daim Onunla olmamızı istəyir. Ruhumuzun meracı olan namazı da dünya şərtlərində yaşana biləcək ilahi vüslətə ən böyük vəsilə qılır. Bunun üçün də **"Səcdə et və yaxınlaş!"** (əl-Ələq, 19) buyurur.

Mirzə Məzhər Canı-Canan (rəhmətullahi əleyh) belə buyurmuşdur:

"Hər əməlin bir keyfiyyəti var. Namaz bütün xüsusiyyətləri özündə cəm etmişdir. O, Qurani-Kərim tilavəti, təsbihat, Salavati-Şərifə və istiğfar kimi zikrlərin nurlarını ehtiva edir. Əgər namazın ədəbləri layiqincə yerinə yetirilsə, Əsri-Səadətin ruhani hallarına bənzəyən ən feyzli və bərəkətli hallar namazda yaşanar."[4]

Əbədi qurtuluş vəsiləsi olan qazanclı ticarətin üçüncü şərti isə gizlində və aşkarda infaq edə bilməkdir. Mömin gizli infaqı seçməlidir. Lakin aşkarda infaq etməyə məcbur qaldıqda da -riya və nümayiş təhlükəsi səbəbiylə- ixlasını qorumağa daha böyük bir etina göstərməlidir.]

Loğman علیه السلام buyurur:

"Oğlum! Möminin iki ürəyi olmalıdır, biriylə ümid bəsləməli, digəriylə qorxmalıdır."[5]

[Dünyəvi məsələlərdə qorxu və məhəbbətin bir ürəkdə birləşməsi mümkün deyil. Lakin bu qayda mənəviyyatda tamam fərqlidir. Kamil bir mömin Allahın saysız nemətlərinin təfəkküründə dərinləşdikcə, könlü məhəbbətullahla dolar. **"Yaradan Rəbbinin adıyla oxu!"** (əl-Ələq, 1) əmrinə itaət edərək, məhəbbət

nəzəriylə baxdığı hər varlıq vəsiləsiylə qəlbən Allaha yüksələr. Bu yaxınlıq və dostluğu itirməmək üçün də həddən artıq diqqət edər və ehtiyatlı olar. Allaha olan sevgisini zədələməkdən qorxaraq narahatlıq keçirər və qəlbi titrəyər.

Peyğəmbərlər və övliyaullahın həyatları bu halın ali təzahürləriylə doludur. Bu mənada Allahın Xəlili olan İbrahim علیه السلام belə, həmin narahatlıqla Rəbbinə: **"(İnsanların qəbirlərindən çıxardılıb) dirildəcəyi gün (qiyamət günü) məni zəlil (rüsvay) etmə!"** (əş-Şuəra, 87) –deyə dua etmişdir.

Xavf və rəca, yəni qorxu ilə ümid möminin qəlbində daim olması zəruri olan bir qulluq müvazinətidir. Yəni möminin qəlbində Allahın rizası və məhəbbətindən məhrum qalaraq qəzəbinə düçar olma qorxusuyla, Onun sonsuz rəhmət və bağışlamasına nail ola bilmə ümidi daim eyni tarazlıqda mövcud olmalıdır. Mömin son nəfəsinə qədər bu qəlbi ahəngi mühafizə

etməlidir. Çünki Qurani-Kərimdə və hədisi-şəriflərdə cənnətə bir qarış qalmış ilahi əzaba düçar olanlar və bunun əksinə, cəhənnəmə bir qarış qalmış ilahi rəhmətə məzhər olanlardan xəbər verilir.

Yəni son nəfəsdə kimin imanla gedəcəyi məchuldur. Bu xüsusda peyğəmbərlər və onların müjdələdiyi insanlar xaric, heç kimin zəmanəti yoxdur. Bununla yanaşı ayeyi-kərimədə:

"Ey iman gətirənlər! Əgər siz Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm (cihadda möhkəm, qüvvətli) edər." (Muhəmməd, 7) buyurulmaqdadır. Beləliklə, mömin son nəfəsdə iman qurtuluşu üçün həm həyatı boyunca ilahi riza istiqamətində cəhd göstərməli, həm də Allahın rəhmət və bağışlamasına nail ola bilmək ümidiylə dua və yalvarış halında olmalıdır. **Yusif** عليه السلام da: **"…Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!"**[6] duasıyla Allaha münacat halını qorumuşdur.]

Loğman عليه السلام **buyurur:**

"Oğlum! Dünya dərin bir dəryadır. (Arif olmayan alimlər və) bir çox insan bu dəryada boğulub həlak olmuşdur. Bu dəryada sənin gəmin Allaha (aram tapmış bir qəlb ilə) iman etmək olsun. Gəminin təchizatı isə təqva və ibadətlər olsun! Gəminin (səfərini təmin edən) yelkənləri də din olsun! Belə bir gəmiylə Allaha təvəkkül edərək yol alsan, (yenə də nəticədə) bəlkə xilas olar, bəlkə də xilas ola bilməzsən!"[7]

[Əbədiyyət yolçusu olan insanın bu dünyada qazanacağı ən yaxşı axirət azuqəsi şübhəsiz ki, iman və saleh əməllərdir. Bununla yanaşı, kamil bir mömin nə qədər saleh əməllər işləsə də, bunlara arxayın olaraq qurtulacağına, yəni cənnət əhlindən olacağına qəyiyyətlə inanmaz. Əməllərini ən gözəl şəkildə ifa etməklə yanaşı, buna deyil, yalnız Allahın rəhmət və məğfirətinə ümid bəsləyər. Bu hal möminləri əməllərinə güvənərək məğrur olma xəstəliyindən qoruyan vacib bir qulluq ədəbidir. Buna görə də vəli qullar müstəsna bir təqva həyatı yaşamalarına baxmayaraq yenə də özlərini digər insanlardan geridə qəbul edər, hər kəsin qurtulacağı, özlərinin isə qurtula bilməyəcəyi təlaşıyla qulluq səylərini daha da artırmağa çalışarlar.

Elm və irfan sahəsində müstəsna yerə sahib olması səbəbiylə yaşadığı əsrdə "Günəşlər Günəşi" adı ilə tanınan **Xalid Bağdadi həzrətləri** bu qulluq ədəbindən doğan hissiyyatını qardaşına belə ifadə etmişdir:

"…Heç kimi xor görmə, özünü heç kimdən üstün sayma! Var gücünlə qəlbi və cismani ibadətlərə sarıl! Buna baxmayaraq özünü "heç bir xeyirli əməl işləyə bilməmiş bir miskin" bil!.. Allaha and olsun ki, anamın məni dünyaya gətirdiyi gündən bəri tək bir xeyirli əməl işlədiyimə inanmıram… Əgər öz nəfsini bütün xeyirli işlərdə müflisləşmiş olaraq görmürsənsə, bu, cəhalətin ən son həddidir. Özünü müflisləşmiş olaraq gördükdə də əsla Allahın rəhmətindən ümidini kəsmə! Çünki Allahın fəzli və kərəmi qul üçün bütün insanların və cinlərin əməlindən daha xeyirlidir…"

Digər tərəfdən heç bir qul nə qədər günah işləmiş olursa olsun, Allahın rəhmət və bağışlamasını yox sayaraq ümidsizliyə qapılıb özünü mütləq şəkildə cəhənnəmlik olaraq görməməlidir. Necə ki, Uca Rəbbimiz belə buyurur:

"(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: "Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!" (əz-Zumər, 53)

Bu ayeyi-kərimədə müjdələnən ilahi rəhmətə nail ola bilmək üçün, dərhal ardınca gələn bu ayənin də məzmununa girərək, tövbə ilə Haqqa yönəlmək lazımdır:

"(Tövbə edib) Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz!" (əz-Zumər, 54)

Hz. Peyğəmbər ﷺ də belə buyurmuşdur:

"Əgər mömin Allahın əzabının şiddət və keyfiyyətini bilsəydi, əsla cənnəti ümid etməzdi. Kafir də Allahın rəhmətini tam olaraq idrak edə bilsəydi, Onun cənnətindən əsla ümidini kəsməzdi." (Müslim, Tövbə 23)

Xavf və rəca xüsusunda Quran və Sünnənin təlqinləriylə kamilləşən səhabeyi-kiram da böyük bir mənəvi oyanıqlıq içində olmuş və və qəlbi riqqətə sahib idi. Necə ki, **İbn Əbi Muleykə** (rəhmətullahi əleyh) belə deyir:

"Rəsulullah ﷺ-in səhabələrindən otuz nəfəri gördüm. Onların hər biri öz nəfsi üçün nifaqdan qorxurdu. Onların heç biri (yüksək ədəblərindən ötrü) Cəbrayıl və Mikayılın imanı kimi (qüvvətli) bir imana sahib olduğunu söyləyə bilmirdi." (Buxari, İman, 36)

Həzrət Ömər ﷺ kimi böyük bir İslam şəxsiyyəti belə özünü bu qorxudan azad hiss etmirdi. Bildiyimiz kimi Hz. Peyğəmbər ﷺ qəlbində nifaq əlaməti olanları səhabələrindən yalnız sirdaşı Hz. Hüzeyfətül-Yəmaniyə bildirmişdi. Bunu bilən Həzrət Ömər ﷺ xəlifəliyi zamanında bir gün Həzrət Hüzeyfənin yanına gedib könlünü narahat edən o böyük qorxunu dilə gətirdi:

"- Ey Hüzeyfə! Allah xatirinə söylə, məndə nifaq əlaməti varmı?!"

Həzrət Hüzeyfə də:

"- Ey Xəlifə! Yalnız sənə təminat verərəm, səndə nifaq əlaməti yoxdur!", -cavabını verdi.

Həzrət Ömər ﷺ kimi o böyük şəxsiyyət bütün fəzilətlərinə baxmayaraq, qəlbindəki xavf və rəca müvazinəti səbəbiylə belə buyurmuşdur:

Əbədiyyət yolçusu olan insanın bu dünyada qazanacağı ən yaxşı axirət azuqəsi şübhəsiz ki, iman və saleh əməllərdir. Bununla yanaşı, kamil bir mömin nə qədər saleh əməllər işləsə də, bunlara arxayın olaraq qurtulacağına, yəni cənnət əhlindən olacağına qəyiyyətlə inanmaz. Əməllərini ən gözəl şəkildə ifa etməklə yanaşı, buna deyil, yalnız Allahın rəhmət və məğfirətinə ümid bəsləyər.

"Əgər göydən gələn bir səs:

"- Ey insanlar, cəhənnəmə yalnız bir nəfər girəcək", -desə, o adamın mənim olacağımdan qorxaram. "Ey insanlar, cənnətə yalnız bir nəfər girəcək", -desə, o zaman da cənnətə girəcək adamın mənim olacağımı ümid edərəm".[8]

Xülasə, möminin qəlbi daima qorxu ilə ayıq, ümid ilə də hüzur və sakitlik içində olmalıdır.]

Loğman ﷺ buyurur:

"Ey oğlum! Dünyadan sənə kifayət edəcək qədərini götür! Axirətinə zərər verəcək şəkildə tamamən ona dalma! Dünyanı da tamamilə tərk etmə ki, sonra insanlara möhtac hala düşərsən (onlara yük olarsan). Şəhvətini qıracaq qədər oruc tut. Lakin səni (taqətdən salaraq) namazdan uzaqlaşdıracaq qədər çox oruc tutma! Çünki namaz Allaha orucdan daha sevimlidir."[9]

[Mömin hər işdə etidal üzrə olmalı, ifrat və təfritdən, yəni həddən artığına qaçmaqdan çəkinməlidir. Dünya işlərində, axirət yönlü səy və xidmətlərində, hətta ibadət həyatında heç vaxt həddən artığa meyil etməməli, daim Allah və Rəsulunun təyin etdiyi hüdudlar çərçivəsində balanslı bir həyat yaşamalıdır. Qulluq həyatının məqbul bir səviyyədə davam etməsi də buna bağlıdır.

Rəsulullah ﷺ bir gün:

"*- Orta yolu tutun, dostdoğru olun. Bilin ki, heç biriniz əməli sayəsində qurtuluşa çata bilməz.*" buyurmuşdu. Yanındakı səhabələr:

"- Bu dediyiniz sizə də aiddir, ey Allahın Rəsulu?", -deyə heyrətlə soruşdular. Hz. Peyğəmbər ﷺ:

"*- (Bəli) Mən də xilas ola bilmərəm. Ancaq Allah rəhmət və kərəmiylə məni bağışlasa, o başqa!*" cavabını verdi. (Müslim, Münafiqin, 76, 78)[10]

İbadətlərdə səhlənkar davranmaq insanı axirətdə çətin vəziyyətə salacağı kimi həddindən artıq həyəcana qapılıb ehtirasla hərəkət etmək də bir müddət sonra yorğunluq, bezginlik və səhvlərə səbəb ola bilər. O halda orta yolu tutmaq və davamlılığı əsas götürmək lazımdır. Aşağıdakı hadisə bunu nə gözəl izah edir:

Rəsulullah ﷺ bir gün əshabi-kirama qiyamətdən bəhs etmişdi. Onlar da çox təsirlənib ağladılar. Sonra aralarından on nəfər Osman bin Məzunun evində toplaşdı. Aralarında gedən müzakirələr nəticəsində bundan sonra dünyadan əl ətək çəkməyə, qadınlarla evlənməməyə, gündüzləri orucla, gecələri isə səhərə qədər ibadətlə keçirməyə, ət yeməməyə,

xanımlarına olan əlaqəni azaltmağa, gözəl ətir vurmamağa və yer üzündə gəzib-dolaşmamağa qərar verdilər. Rəsulullah ﷺ bunu eşitdikdə əvvəlcə onlara xəbərdarlıq etdi, sonra da əshabi-kiramı toplayıb belə xitab etdi:

"Bəzi adamlara nə olur ki, xanımlarıyla birlikdə olmağı, yeyib-içməyi, gözəl ətirlə ətirlənməyi, yatmağı və şəri dünya zövqlərini özlərinə haram edirlər. Şübhəsiz ki, mən sizə keşiş və ruhban olmağı əmr etmirəm. Mənim dinimdə ət yeməyi tərk etmək, qadınlardan uzaqlaşmaq olmadığı kimi, dünyadan əl-ətək çəkib monastırlara qapanmaq da yoxdur. Ümmətimin səyahəti oruc, ruhbanlıqları (təqvaları) isə cihaddır. Allaha ibadət edin, Ona heç bir şeyi ortaq qoşmayın, həcc və ümrə edin, namazlarınızı qılın, zəkatınızı verin, Ramazan orucunu tutun. Siz dostdoğru olun ki, başqaları da elə olsun. Sizdən əvvəlki ümmətlər həddi aşdıqları üçün həlak oldular. Dini özlərinə çətinləşdirdilər, Allah da onlar üçün çətinləşdirdi. Bu gün kilsə və monastırlarda olanlar onların qalıqlarıdır."

Bunun üzərinə ayeyi-kərimə nazil oldu:

"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!" (əl-Maidə, 87) (Bax. Vahidi, s. 207-208; Əli əl-Qari, əl-Mirqat, I, 182-183)]

Loğman علیه السلام buyurur:

"Ey oğlum! Allahdan qorx ki, qəlbin günah ləkələriylə dolu olduğu halda sənə ikram etsinlər deyə insanlara Allahdan qorxurmuş kimi görsənmə!"[11]

[Riya, ikiüzlülük və dini duyğuları istismar etmək İslam əxlaqına əsla yaraşmayan, son dərəcə çirkin xüsusiyyətlərdir. Ümid etdiyi bir mənfəəti əldə etmək üçün saleh insanların yanında kamil bir mömin kimi görünüb onların yanından ayrıldıqda buna zidd davranışlar sərgiləmək qəlblərdən keçənləri də bilən Allah-Təalanın qəzəbini cəlb edər. Bunun üçün də Rəsulullah ﷺ bu xəbərdarlığı edir:

İbadətlərdə səhlənkar davranmaq insanı axirətdə çətin vəziyyətə salacağı kimi həddindən artıq həyəcana qapılıb ehtirasla hərəkət etmək də bir müddət sonra yorğunluq, bezginlik və səhvlərə səbəb ola bilər. O halda orta yolu tutmaq və davamlılığı əsas götürmək lazımdır.

"Ümmətim üçün ən çox qorxduğum şey Allaha şərik qoşmaqdır. Bu sözümlə onların aya, günəşə və ya bütə tapınacaqlarını nəzərdə tutmuram. Məni qorxudan Allahın rizası xaricindəki məqsədlər üçün ediləcək əməllər və gizli şəhvətlərdir (riya və göstəriş duyğularıdır)". (İbn Macə, Zöhd, 21)

Həqiqi möminin bariz xüsusiyyəti onun səmimiyyəti, ixlası və sədaqətidir. Mövlana həzrətləri könüllərdəki bu ixlası mühafizə üçün:

"Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!.." buyurmuşdur.]

Allah-Təala hər birimizə ixlas, səmimiyyət, sədaqət və ədəblə zinətlənmiş bir qulluq həyatı yaşamağı, rizası yolunda iman həyəcanıyla xidmət edə bilməyi nəsib etsin.

Amin!..

---

1. Bax. Beyhəqi, *əz-Zöhdül-Kəbir*, s. 201, № 501.
2. İbn Macə, Zöhd, 15.
3. Əhməd, *əz-Zöhd*, Beyrut 1999, s. 43, № 269; Beyhəqi, *əz-Zöhdül-Kəbir*, s. 281, № 721.
4. Abdullah Dəhləvi, *Məqamati-Məzhəriyyə*, s. 73.
5. Əhməd, *əz-Zöhd*, s. 87, № 537.
6. Yûsuf, 101.
7. Beyhəqi, *əz-Zöhdül-Kəbir*, Beyrut 1996, s. 139, № 269.
8. Əli əl-Müttəqi, XII, 620/35916. Həmçinin bax. İbn Rəcəb əl-Hənbəli, *ət-Təxvif minən-Nar*, Dəməşq 1979, s. 15.
9. Beyhəqi, *əz-Zöhdül-Kəbir*, s. 84, № 91.
10. Həmçinin bax. Buxari, Riqaq, 18, Mərda 19.
11. Əhməd, *əz-Zöhd*, Beyrut 1999, s. 44, № 270.

Saleh ŞİRİNOV
salehsirin@hotmail.com

NAMAZIN FAYDALARI

Namaz Allah-Təalanın bəndələrinə ehsan etdiyi ən böyük lütfdür. Namaz üçün sərf edilən dəqiqələr həyatın ən dəyərli, ən qazanclı və xoşbəxt anlarıdır. "Dünya və dünyada olan hər şeydən daha xeyirli" olduğu bildirilən iki rükət namazın bizim bilmədiyimiz və sayılmayacaq qədər hikmət və faydaları vardır. Dünyəvi və uxrəvi bu qazanc və faydalarından bəzilərini belə saya bilərik:

1-Namaz bütün varlıqların ibadət simvoludur. Namazda ayaq üstə durmaq, rüku və səcdə vardır. Bunların hər biri fəqrli varlıqlara aid ibadət şəkilləridir. Ayaqda ikən bəzi bitkilərin, rükuda ikən dörd ayaq üzərində yeriyən varlıqların, səcdədə ikən sürünən varlıqların və bəzi bitkilərin ibadət şəklinə bürünürük.

2-Namaz qulu Allaha yaxınlaşdırır. Namaza Allahu Əkbər deyərək başlayırıq. Mənası; "Allah ən böyükdür" deməkdir. Həqiqətdə isə: "Allahu Əkbər, Allahdan başqa böyük yoxdur" sözünün elanıdır. Qul namazın oturuşunda ət-Təhiyyatı oxuyarkən Allahla Peyğəmbərimizin söhbət və salamlaşmalarını, aralarında keçən danışıqları təfəkkür edər, təkrarlayar və Allah Rəsulunun (s.ə.s) merac hadisəsinin həyəcanını yaşayar.

3-Namaz Allaha məhəbbəti artırır. Namaz möminin meracıdır, yüksəlməsidir. Belə olması şüuru və idrakıyla Rəbbin divanına durarıq. Namazda oxunan Fatihə surəsi Allahla bəndə arasındakı sevgini artırır.

4-Namaz insana hüzur verir. Namaz Allah ilə bəndə arasında əlaqə, vasitəçi və qulun Allahla söhbəti və danışmasıdır. Allah ilə çox söhbət etmək və bu söhbəti uzatmaq qəlbə hüzur verər.

5-Namaz insanlar arasında dostluğu artırır. Namaz möminin şüarıdır, möminliyinin əlamətidir. Namaz kin və düşmənçiliyi aradan qaldıran, qəlbləri bir-birinə isindirən, sevgi və mərhəməti artıran, sayğı və hörmət bəxş edən ən böyük ünsürdür.

6-Namaz insana sağlamlıq və disiplin qazandırır.

7-Namazda təmizlik əsasdır. Namazın səhih olması üçün təmizlik şərt olduğuna görə namaz qılan biri görünən və görünməyən kirlərdən təmizlənər.

8-Namaz ruzini artırır. İmanda ixlas mömini ibadətə yönləndirər. İbadətdə ixlas isə insana qənaət və qəlb zənginliyi qazandırar. Səhər namazına duran bir insan ruzi bölgüsündə hazır olar, ruzisi halalından və bərəkətli olar.

9-Namaz ibadətlərin başıdır. İbadətlər imanın uzun ömürlü olmasına səbəb olar. Namaz digər ibadətlərin başı və piridir. Namaz nəfsə ağır gələn ibadətlərin qabağında duran əngəlləri dəf edər, onların qabağını açar. Namazla digər ibadətlərin ədası asanlaşar.

10-Namaz qulluğun ifadəsi və sübudutur. Namaz qulluğun ifadəsi və təzahürüdür. Özünü qul, Yaradanını da Rəbb olaraq tanımaqdır. Qulluq şərəfiylə şərəflənməkdir.

11-Namaz lovğalıq və təkəbbürü qırar. Qulluğun qapısı namaz ilə açılar. Namazda ehtiyac bildirmək, yardım istəmək, Onunla danışmaq, rüku ilə Onun hüzurunda ədəblə əyilmək, səcdə ilə təkəbbürdən sıyrılıb Uca Rəbbin böyüklüyü qarşısında acizliyin, heçliyin etirafı vardır.

12-Namaz pisliklərdən uzaqlaşdırar. İxlas və səmimiyyətlə qılınan namaz insana qulluq şüuru qazandırar, Yaradanına qulluq vəzifəsini tanıdar. Qəlbə Allah qorxusunu yerləşdirər və sahibini üsyandan, günahlardan uzaqlaşdırar. Namaz insanı özünə verdiyi əhəmiyyət ölçüsündə pisliklərdən uzaqlaşdırar. Əgər qıldığı namaz bir insanı pisliklərdən və ya günah işlərdən uzaqlaşdırmırsa, əskiklik həmin adamın özündədir.

13-Namaz insana etibar və güvən qazandırar. İxlasla namazını qılan kimsə Allahın qoruması altındadır. Hədisi-şərifdə belə buyurulur: *"Kim sübh namazını qılarsa, Allahın mühafizəsi altındadır."*

14-Namaz ruhu ucaldır. Qəlbi təmizləyər, ruhu aydınladar, nəfsi təzkiyə və tərbiyə edər.

15-Namaz üzü nurlandırır. Namaz üzə gözəllik və parlaqlıq qazandırar. Namaz qılanların üzündə ilahi bir nur və mənəvi gözəllik təcəlli edər.

16-Namaz qulun şəfaətçisidir. Ədəbinə uyğun şəkildə qılınan namaz qulun şəfaətçisidir. Hz. Peyğəmbər (s.ə.s) buyurur ki: *"Kim gözəl şəkildə dəstəmaz alar, namazını vaxtında qılar, rüku və səcdəsini tamamlayar, xüşusuna riayət edərsə, (qıldığı namaz) bəyaz və parlaq olduğu halda yüksələr və (hal diliylə) "Mənim haqqıma riayət etdiyin kimi Allah da səni qorusun" deyə niyaz edər.."* (Təbərani).

17-Namaz digər ibadətlərin qəbulunu asanlaşdırır. Qiyamət günü qulun hesaba çəkiləcəyi ilk əməl namazdır. Bir insanın namazının qüsursuz və əskiksiz olması digər ibadətlərin də qəbulunu asanlaşdırar. Yenə hədisi-şərifdə buyurulur ki: *"Namazını zay etmiş və qaçırmış olaraq Allaha qovuşan kimsənin digər yaxşılıqlarına Allah dəyər verməz."*

18-Namaz cənnət qapılarının açarıdır. Başda namaz olmaqla Allahın əmr və qadağalarına riayət Onun rizasını cəlb edər. Riza isə insanı cənnətə qoyar. Namaz sahibinə cənnəti haqq etdirən ən əhəmiyyətli əməllərdən biridir. Ona görə hədisi-şərifdə *"cənnətin açarı namazdır"* buyurulur.

19-Namaz cənnətdə Allahı görməyə vəsilədir. Namazın qarşılığı və qazandırdığı sadəcə cənnət deyil. Namaz dünyəvi bir çox faydalarla birlikdə qəbirdə aydınlıq, münkər-nəkir mələklərinin suallarına cavab, cəhənnəmə pərdə, siratdan rahat keçməyə səbəb, cənnət qapısının açarıdır. Hamısından əhəmiyyətlisi də cənnətdə Allahı görməyə vəsilədir.

20-Və son olaraq Namaz qurtuluşdur. Sözləri Allah-Təala tərəfindən bildirilən azanın cümlələrindən biri də "hayyə aləlfələh"dir. Mənası isə "qurtuluşa tələsin" deməkdir. Müsəlman olmayan birinə deyilən "müsəlman ol, qurtul" cümləsi o insanın həyatı üçün nə qədər əhəmiyyət daşıyırsa, müsəlman birinə deyilən "namaz qıl qurtulaşa çat" cümləsi və həqiqəti də ona yaxın bir əhəmiyyət daşımaqdadır. Əla surəsi 14 və 15-ci ayələrdə Rəbbimiz buyurur ki: **"Təmizlənən və Rəbbinin adını zikr edib namaz qılan, şübhəsiz ki, qurtuluşa çatmışdır".**

Nəfsinə qalib gələrək təkəbbürdən uzaq olanlar, şeytanın hiyləsinə və tələsinə düşmədən Allaha qulluğunu ərz edə bilənlər nə xoşbəxtdir!

Salih Zeki MERİÇ
salihzekimeric@yahoo.com

İMANI CANLI TUTMAQ

Əbu Hüreyrə (r.a)-dan gələn rəvayətə görə Rəsululah (s.ə.s) bir gün səhabələrinə: *"İmanınızı təzələyin!"*, -buyurdu. Əshabi-kiram: "Ey Allahın Elçisi, imanımızı necə təzələyək?", -deyə soruşdu. Rəsulullah (s.ə.s) də: *"Lə iləhə illəllah sözünü çox söyləyin!"* cavabını verdi. (Əhməd, II, 359; Hakim, IV, 285/7657)

Kəlmeyi-Şəhadət və Kəlmeyi-Tövhid iman çərçivəsinə girmək üçün birinci şərtdir. İman Allaha ortaq qoşmamaq, Onun bir və tək olduğunu ürəkdən təsdiq, dil ilə də ifadə etməkdir. Eyni zamanda iman Allaha, peyğəmbərlərinə, kitablarına, mələklərinə, qeybə və öldükdən sonra dirilməyə, yəni axirət gününə inanmağı tələb edir. Rəsulullahın "imanınızı Kəlmeyi-Tövhidlə yeniləyin" ifadəsi davamlı olaraq qəlbi oyanıqlığı tələb edir. "Lə iləhə illəllah" sözünü çox təkrar etmək Haqq-Təalanın birliyini və ucalığını zədələyəcək ən kiçik bir təmayüldən uzaq durmağa çalışmaqdır.

İmanın tərifini Hz. Peyğəmbər belə verir: Əbu Hüreyrə (r.a.)dan rəvayət edilən məşhur "Ehsan" hədisi-şərifinin bir yerində Rəsulullahla Cəbrayıl (ə.s)-ın dialoqunda imanın tərifini şəxsən Rəsulullah verir:

Hz. Peyğəmbər (s.ə.s) bir gün camaatın arasında oturmuşdu. Bu zaman yanına bir nəfər gəldi və: *"Ey Allahın Elçisi! İman nədir?", -dedi. "Allaha, mələklərinə, kitablarına, Allaha qovuşmağa, peyğəmbərlərinə inanmağın və öldükdən sonra dirilməyə iman etməkdir"*, -buyurdu. (Səhihi-Müslim)

İman dairəsinə girmək nə qədər əhəmiyyətlidirsə, iman dairəsində qalmaq da bir o qədər əhəmiyyətlidir. Möminlərin bir-birlərinə qarşı məsuliyyətləri onları Allaha qarşı bir səhv etməmələri barəsində xəbərdar etmələri ilə başlayır. "Əmri bil-məruf və nəhyi anil-münkər" möminin həyatı boyunca ifa etməsi lazım olan nəbəvi təbliğ üsuludur. Başqa cür desək, möminlərin imanlarını təhlükəyə salacaq hal, davranış və vəziyyətlərdən bir-birlərini qorumaları da eyni zamanda bir təbliğ məsuliyyəti tələb edir.

İslam fərdiyyətçilikdən əvvəl cəmiyyətə önəm verir. İslamın iki ana sütununun olduğunu qəbul etsək, bunların birincisi iman, digəri isə əməldir. Əməl imanın olması ilə məna qazanır.

Hər tərəfin şirk və üsyan atəşi ilə əhatə olunduğu zəmanəmizdə imanı qorumaq başlı-başına böyük bir məsələdir. İman İslam dairəsinə girməyin ilk şərtidir. Möminin bütün səyi imanlı bir həyat sürmək və iman ilə son nəfəsini vermək olmalıdır. Kəlmeyi-Tövhid və Kəlmeyi-Şəhadət insanın bir mənada ölmüş ruhunu dirildən yeganə iksirdir.

Rəsulullah (s.ə.s)-in təbliğ mübarizəsi də imanla başlayır. Zünki O, şirk atəşinə mübtəla olmuş Məkkə toplumunun tapındıqları bütlərini tərk edib, bir və tək olan Allaha inanmağa çağırır və bütün mübarizəsini tövhid mərkəzinə yönəldirdi. İman mühafizəsi dini mövzularda şübhəsiz bir təslimiyyət, əmələri düzgün və doğru istiqamətli bir möminin ortaya çıxmasına vəsilə olmaqdadır.

Məşhur bir hekayəyə görə:

Bir nəfər dəniz kənarında sahilə vurmuş dəniz ulduzlarını bir-bir tutub dənizə atırmış. Bu zaman bir nəfər yaxınlaşaraq nə etdiyini soruşur. "Dəniz ulduzlarını xilas edirəm", -deyə cavab verir. Digəri "amma onlar o qədər çoxdur ki, nə fərq edər" deyə sözünə davam edir. Adam qumların üstündən bir dəniz ulduzu da götürüb dənizə atır və əlavə edir: "bax, onun üçün çox şey fərq etdi".

Hər birimizin ətrafında sahilə vurmuş dəniz ulduzları var. Hər gün onlarla, yüzlərlə insanın küfr bataqlığına düşməsinə səssiz qalmaq dərd sahibi olan bir möminin qəbul edəcəyi hal deyil. Hətta bəzən özümüz də bir dəniz ulduzu kimi sahilə atıla bilərik. O zaman yapışacağımız möhkəm bir qulp və bizi təkrar möhtac olduğumuz abi-həyata çevirəcək mərhəmət əli olmalıdır. Biz özümüzü nə qədər təhlükəsiz yerə çıxarsaq, başqalarının dərdinə o qədər dərman ola bilərik.

Yəni müsəlman iman qurtarma adına özünü dəniz kənarına vurmuş dəniz ulduzlarını təkrar həyat tapacaqları suya qovuşdurma vəzifəsində görməlidir. Çağımızın beyinləri sulandıran, insanları boş xəyallar arxasınca qovan düşüncə axınlarının qarşısında Rəsulullahın şəfqət nəfəsini çatdırma məsələsində vəzifəli olduğunu unutmamalıdır.

Hər mövzuda olduğu kimi bu mövzuda da ən gözəl misal Rəsulullahın təbliğ mübarizəsi və imana dəvət etmə əzmidir. Başdan-ayağa bir şirk toplumu olan cəmiyyətdə bir nəfər olaraq vəzifəsinə başlayan Peyğəmbər (s.ə.s) nəticədə bütün qəbilələrin, Ərəbistan Yarımadasının və hətta dünyanın dəyişməsinə və imanın ləzzətinə qovuşmasına vəsilə olmuşdur.

Hər birimiz özümüzə bu sualı verək: Rəbbimizin bizə verdiyi bu ömrümüzdə neçə insanın hidayətinə vəsilə ola bilmişik?

Neçə insanın iman dairəsində qalması üçün səy göstərmişik. Təbliğ vəzifəsi ilə məsul olan bizlər bunu bir həyat tərzi halına gətirmək və həyatımızın məqsədini bu istiqamət üzrə təyin etmək məcburiyyətindəyik.

Hər birimizin ətrafında sahilə vurmuş dəniz ulduzları var. Hər gün onlarla, yüzlərlə insanın küfr bataqlığına düşməsinə səssiz qalmaq dərd sahibi olan bir möminin qəbul edəcəyi hal deyil. Hətta bəzən özümüz də bir dəniz ulduzu kimi sahilə atıla bilərik. O zaman yapışacağımız möhkəm bir qulp və bizi təkrar möhtac olduğumuz abi-həyata çevirəcək mərhəmət əli olmalıdır.

İbrahim EROL
i_erol61@hotmail.com

İmam Əzəm-2

Əbu Hənifənin xalq tərəfindən sevgi və hörmət qazanmasında fətvalarının hər yerdə haqlı olaraq tutulmasında, elmi ixtilaflardan təmizləyib xalqı maarifləndirməsi, fitnələrə bulaşmaması və təqvasının rolu böyük olmuşdur. Onun tələbələrinə öyüdlərində elmdə azad düşüncə və araşdırma yollarının tutulması, cahil və fanatiklərdən uzaq durulması kimi əhəmiyyətli qeydlər vardır: "Xalqa yaxınlaş, fasiqlərdən uzaqlaş. İnsanlığında qüsur etmə, heç kimi xor görmə. Bir məsələdə fikirini soruşana bilinən fikrini təkrarla və sonra o məsələdə bu və ya digər şəkildə başqa fikirlərin də olduğunu söylə. Xalqa qarşı mülayim ol, bezginlik göstərmə, onlardan biri kimi yaşa." Əbu Hənifə heç kimə "mənim görüşüm ən doğrudur" demədi, hətta özünün də bir fikri olduğunu, amma daha yaxşı bir fikir irəli sürənə tabe olacağını deyərdi.

Həyatının bir hissəsi Əməvilərin, bir hissəsi də Abbasilərin hakimiyyət illərində keçdi. Hər iki dövrdə də siyasi iqtidara qarşı idi. Onun siyasətini Əhli-Beyt tərəfdarlığı təyin edirdi. Əhli-Beytə böyük söhbəti vardı. Abbasilər iqtidara gəldikdə Əhli-Beytə hörmət edəcəklərini söyləmişdilər. Ancaq onların iqtidara gəldikdən bir müddət sonra Əhli-Beytə zülm etməyə davam etdiklərini gördükdə onlara da qarşı çıxdı. Həm Əməvilər, həm də Abbasilər dövründə onu öz tərəflərinə çəkmək, xalqın nəzərindəki etibarından faydalanmaq üçün qazılıq vəzifəsi təklif etsələr də o, hər iki dövrdə də gələn təklifləri rədd etmiş və bu səbəbdən ötrü işgəncəyə məruz qalmış, həbs edilmişdir. Əbu Hənifə xalqı açıq bir şəkildə Əhli-Beytə dəstək olmağa çağırırdı. Bu səbəblə ona müxtəlif işgəncələr verilmişdir.

Xəlifə Mənsur öz dövründə onu baş qazılığa təyin etmək istəyirdi. Hətta bunda israr etdi. Ancaq Əbu Hənifə baş qazılığın siyasi bir mövqe olduğu və bunun da elmi işlərə mane olacağı əndişəsi ilə qəbul etmədi. Xəlifə nə üçün baş qazılığı qəbul

etmədiyini ondan soruşduqda isə: "Mən baş qazılığa səlahiyyətli biri deyiləm! Sənin də bu vəzifəni mənə verməyin doğru olmaz!", -dedi. Xəlifə təkrar: "Nə üçün?", -deyə soruşdu. İmam Əzəm: "Əgər doğru bir adamamsa, bu vəzifə mənə yaramır! Əgər yalan deyirəmsə, yalançıdan qazı olmaz!", -dedi.

Xilafət 132-ci ildə Abbasilərə keçənə qədər Əbu Hənifə İraqdan Hicaza getdi. Orada Malik b. Ənəs (179) və Süfyan b. Uyeynə kimi tanınmış imamlarla görüşdü. Həccə gələn müxtəlif elm mərkəzlərinin alimləri ilə münasibət qurdu. 136-cı ildə Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsurun hakimiyyətə gəlməsi ilə Kufəyə qayıtdı. Lakin Əhli-Beytə davamlı təzyiqlər edildiyini görüb onunla da razılaşa bilmədi və Əhli-Beyt lehinə fətvalar verdi. Üz dövrünün ən böyük alimlərindən olan İmam Cəfəri Sadiqin yanına gedərək iki il onun məclisində iştirak etmiş və "bu iki il olmasa Əbu Hənifə həlak olardı", -demişdi. Hicri 150-ci ildə vəfat edərkən yaxınlarına "Xəlifənin qəsb ettdyi heç bir yerə basdırılmamasını" vəsiyyət etmişdi.

Bəzi rəvayətlərə görə İmam Əzəm həbsdə zəhərlənərək öldürülmüşdür. Davud b. əl-Vasitinin nəqlinə görə hər gün həbsdə ona baş qazı olmasını təklif edirdilər, o da hər dəfə rədd edirdi. Nəhayət, yeməyinə zəhər qatılaraq şəhid edildi.

İmam Əzəm ticarətlə də məşğul idi. Tacirlər ona heyran idilər. Ticarətdə onu Həzrət Əbu Bəkrə bənzədərdilər. Hər il qazancının dörd min dirhəmdən çoxunu kasıblara paylayar, alimlərin, müəddislərin, tələbələrinin bütün ehtiyaclarını qarşılayar və onlara pul paylayaraq, təvazö ilə belə buyurardı: "Bunları ehtiyacınız olan yerə sərf edin və Allaha həmd edin. Çünki verdiyim bu mal əslində mənim deyil, sizin nəsibiniz olaraq Rəbbimin ehsan və kərəmindən mənim əlimlə sizə göndərilir."

Əbu Hənifə bir gecə məsciddə yatsı namazını qıldıqdan sonra evə getməyə hazırlaşırdı. Tam məscidin qapısından çıxarkən Üvzai ilə fiqhi bir məsələ haqqında müzakirəyə başladılar. Bu fiqhi mövzu haqqında o qədər müzakirə etdilər ki, hələ məsciddən çıxmadan bu səfər də sübh namazının vaxtı girmişdi. Hər ikisi yalnız sübh namazını qıldıqdan sonra evə gedə bilmişdi.

Başqa bir rəvayətə görə isə Kufə şəhərinin kəndlərini quldurlar basıb, qoyunları oğurlamışdılar. İmam Əzəm oğurlanan qoyunların şəhərə gətirilib satıla biləcəyini düşünərək "qoyunun ən çox yeddi il yaşadığını" bildiyi üçün yeddi il qoyun əti yemədi. Gecələr namaz qılardı. Namazda ağlamasını və hıçqırıqlarını yaxınları eşidərdilər. Əsəd bin Amr deyir: "Əbu Hənifənin ağlamasını gecələr qonşular eşidər və halına acıyardılar."

Kufə şəhərinin kəndlərini quldurlar basıb, qoyunları oğurlamışdılar. İmam Əzəm oğurlanan qoyunların şəhərə gətirilib satıla biləcəyini düşünərək "qoyunun ən çox yeddi il yaşadığını" bildiyi üçün yeddi il qoyun əti yemədi. Gecələr namaz qılardı. Namazda ağlamasını və hıçqırıqlarını yaxınları eşidərdilər. Əsəd bin Amr deyir: "Əbu Hənifənin ağlamasını gecələr qonşular eşidər və halına acıyardılar."

Cənazəsi götürülərkən Bağdad əhalisi oraya toplaşmışdı. O qədər böyük izdiham yaranmışdı ki, cənazə namazı qılanların əlli min adamdan çox olduğu döylənir. Gələnlər çox olduğu üçün ikindiyə qədər altı dəfə cənazə namazı qılındı. Sonuncu cənazə namazını oğlu Hammad qıldırmışdı. Bağdadda Hayzəran Qəbirisitanlığının şərqində dəfn edilmişdir.

Adem ŞAHİN
ameha0@hotmail.com

KİMDİR QIZIL ADAM?



Qazaxıstanın Almata şəhəri yaxınlığında 1970-ci ildə yol çəkərkən başdan-ayağa, corabından kəmərinə qədər hər şeyi qızıl olan bir skelet tapıldı. (Bax. Şəkil 1) Tapılan skelet və əşyaların e.ə 5-ci əsrə aid olduğu öyrənildi. Skeletin əynindəki paltar Misir piramidalarını xatırladan yüzlərlə üçbucaq qızılın yenə qızıl tellərlə bir-birinə bərkidilməsi ilə hazırlanmışdı. Skeletin yanında 4800 qızıl əşya tapıldı. Qəbirdən çıxarılan bir kasada "Xanın oğlu 23 yaşında öldü, ailə üzvlərinin başı sağ olsun" sözləri yazılmışdı.

Qızıl paltarlı adamın qəbirindən çıxan qızılın miqdarı firon Tutankamonun qəbrində tapılanlardan sonra dünyada 2-ci yerdədir.

Hava və suyun təsirinə məruz qalmadığı üçün qızıl heç vaxt paslanmır, qaralmır və donmur. Yenidən dirilməyə inanan qövmlər ölünün yanına dirildikdən sonra istifadə etməsi üçün qızıl qoyurdular. Hökmdarların taxt-tacını bəzəyirdilər. Qızılın digər bir xüsusiyyəti isə xam halda çox yumşaq olmasıdır. Buna görə asanlıqla döyülərək istənilən hala salına bilir. Kibrit qutusu böyüklüyündə olan bir parçası tennis meydançası böyüklüyündə sahəni örtə biləcək qədər nazildilə bilər. Belə ki, bir qram qızıldan 200 metr tel düzəltmək olar.

Qızıl paltarlı adamın əxlaqının və ya ürəyinin qızıl kimi olub-olmadığını bilmirik. Adını da bilmədiyimiz bir adamın əxlaqı haqqında söz söyləmək qeyri-mümkündür. Bildiyimiz bir şey var, o da Almatadan 865 km. uzaqdakı Türküstan şəhərində Əhməd Yəsəvi həzrətlərinin türbəsidir. Əhməd Yəsəvi həzrətləri Türküstanda Divani-Hikmət adlı əsəri və nəhəng türbəsi ilə qızıl kimi heç vaxt pozulmadan və dəyərini itirmədən varlığını saxlayır. Əhməd Yəsəvi həzrətləri bu mənada qızıl adamdır. Hədisi-şərifdə buyurulur:

"İnsanlar mədən kimidir. Əgər dində anlayışını dərinləşdirə bilsə, cahiliyyət illərində xeyirli olan İslamda da xeyirlidir." (Buxari, Ənbiya 19) İnsanların mədənlər kimi olmaları onların əti və sümükləri ilə əlaqəli deyil. İnsanlar əxlaqları, xidmətləri, dəyər görmələri və insanlara faydalı əsər

miras qoyduqlarına görə qızıl, tənəkə, gümüş, brilyant, dəmir, mis kimi adlanar.

Şeyx Ədəbali "İnsanlar var ki, şəfəq vaxtında doğular, axşam azanında ölərlər" deyərkən eşqi, ixlası və xidməti ilə qızıla çevrilməyən insanlardan söz açır. Bu sözə kiçik bir əlavə: Yunus Əmrəyə görə "ölən heyvan imiş, aşiqlər ölməz" sirrinə əsasən qəlbi qızıl adamlar şəfəq vaxtı doğular, qiyamət şəfəqinə qədər də yaşamağa davam edərlər.

Almatadakı qızıl paltarlı adamın geyiminin qiyməti antikvar dəyəri əlavə edilmədən 9 milyon dollar məbləğindədir. Əhməd Yəsəvi həzrətlərinin paltarları antikvar dəyəri olmadan neçə dollar edərdi görəsən? Milyonlarla dollarlıq paltarlarla torpağın altında yatan qızıl paltarlı adam 1970-ci ilə qədər məchul qaldı. Əhməd Yəsəvi həzrətləri isə 1156-cı ildə vəfatından sonra unudulmadı. Yalnız Əhməd Yəsəvi həzrətlərimi? 1299-cu ildə vəfat edən Mövlana həzrətlərinin ildə bir milyondan çox ziyarətçisi var. Yaşayan hansı insanın ildə bir milyon, gündə 3000 ziyarətçisi var? Mədinədə Allah Rəsulunun rövzəsindəki insan axını, salam, salavat və hörmət hansı yaşayan insana qismət olmuşdur?

İnsanların mədənlər kimi müxtəlif dəyər və çoxluğundan bəhs edən başqa bir hədisə keçək: "İnsanlar dəvə kimidir, yüzü bir yerdə olsa da bəzən minəcək bir dəvə də tapmaya bilərsiniz." (Buxari)

Hədisi-şərifdə çoxluq içində yox olub gedən və azalan keyfiyyətdən bəhs edilir.

Bəzən ətrafımızda onlarla insan olur, amma biri ilə söhbət edə bilmirik. Bir xəstəxana dolusu həkim olur, amma müayinə üçün başqa yerə gedirik. Bir mağaza dolusu ayaqqabı var, amma geyinməyə bir ayaqqabı tapılmır. Fiziki vaxımdan evlənmək mümkün olan minlərlə insan var, amma birini də seçmək mümkün olmur.

Xəzinə anlayışının içərisində gözəllik, gizlilik, əldə etməyin çətinliyi, dəyər və bahalıq halları mövcuddur. Qüdsi hədisdə Allah-Təala özünü xəzinəyə bənzədir: "Mən gizli bir xəzinə idim, tanınmağı istədim və məxluqatı yaratdım" (bax. Kəşful-Xafa) Allaha yaxınlaşanlar da xəzinə kimi sirli, dəyərli və bahabiçilməz hala gələrlər.

İstanbulun daşı-torpağı qızıldır, -deyirlər. Yalnız İstanbulmu? Alma toxumu, qarpız rəngi,



Şeyx Ədəbali "İnsanlar var ki, şəfəq vaxtında doğular, axşam azanında ölərlər" deyərkən eşqi, ixlası və xidməti ilə qızıla çevrilməyən insanlardan söz açır. Bu sözə kiçik bir əlavə: Yunus Əmrəyə görə "ölən heyvan imiş, aşiqlər ölməz" sirrinə əsasən qəlbi qızıl adamlar şəfəq vaxtı doğular, qiyamət şəfəqinə qədər də yaşamağa davam edərlər.

buğda sünbülü, qoyun südü daşı-torpağı qızıl olan İstanbuldan geri qalarmı? Yaradılan hər şey gizli bir xəzinədir və bu xəzinənin başlanğıc və bitmə nöqtələrini təyin etmə qiyamətə qədər hər dövr və zamanda xəzinənin başqa istiqamətlərini ortaya çıxaracaq elmi tərəqqi və kəşflər hər zaman davam edəcək. İsrafın qadağan olma səbəbi israf edilən şeyin iqtisadi dəyərindən çox kəşf edilmə prosesi davam edən xəzinə (ayə) olmasıdır.

"Qızıl taxtım olmaqdansa qızıl bəxtim olsun", "Bir ovuc qızıldansa bir ovuc torpağın olsun", *"Sarı qızıldansa sarı samanın olsun"* kimi sözlər həqiqət olmaqla birlikdə insanların çoxu tərəfindən özlərini təsəlli və ürəklərindəki ehtirası söndürmək üçün deyilmiş sözlərdir. "Söz gümüşdürsə sükut qızıldır" deyilsə də nə hikmətsə insanların seçimi həmişə gümüş olmuşdur.

Tarixdə evinin, avtomobilinin, qaşığının, geyiminin, tualetinin qızıldan olmasına çalışan insanlarla və Allahdan başqa hər şeyin fani olduğunun fərqində olaraq daxilini qızıllaşdırmağa çalışanlar olmuşdur. Qızıl gəlinlik, qızıl diş, qızıl buzov, qızıl taxt, qızıl kubok, qızıl tac, qızıl məbəd, qızıl medal, qızıl tualet, qızıl kran, qızıl çəkilmiş yemək dəsti, hətta qızıl avtomobilə qədər hər şeyə şahid olmuşuq. Paltar və geyim ilə "qızıl adam" olmaq asandır. Çətini insanın gizli xəzinə olan Allahı tapması, o xəzinənin gözəlliklərilə qızıllaşmasıdır. Zibil tənəkəsinə atılan bir içimlik içkilərin tənəkə qutusu kimi insan olmamaq duasıyla… Salamat qalın!

AXI, DÜNYA FIRLANIR

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.

Çox ovlaqlar içində çox ovları ovladım,
Aşıb-daşan arzumu mən artıq cilovladım.
Mən atamı ötmüşəm, məni ötür övladım,
Bu, belə də olmalı, axı, dünya fırlanır.

Dünən düz sandığımı bu gün əyri sanıram.
Bəzən olur, özümdən özüm oğurlanıram.
Hər il başqa arzunun başına fırlanıram,
Niyə də fırlanmayım, axı, dünya fırlanır...

Çox əyilən görmüşəm, əyilməyən başları.
Sular duruldu, gördük dibindəki daşları
Ünvanını dəyişdi dünənin alqışları;
Niyə də dəyişməsin, axı, dünya fırlanır...

Necə dönür bu dövran, necə dönür bu gərdiş,
Tazıların üstünə dovşanlar da gülərmiş.
Dünya bina olandan hər şey dəyişilərmiş,
Dəyişməsin neyləsin, axı, dünya fırlanır.

Əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım,
Bütlər gəldi və getdi, birinə inanmadım
Niyə inanmalıyam, axı, dünya fırlanır.

Fırlandıqca bu dünya, yox da dönüb var olur,
Quruyan çeşmələrdən sular yenə car olur.
Bu dünyanm xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın? Axı, dünya fırlanır.

Min-min illər bu dünya beləcə fırlansa da,
Bir yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır,

Nə qədər istəyirsə, min o qədər fırlana,
Qarşıma gah şər çıxa, gah xeyir dığırlana.
Çərxi-fələk istəyir lap dolana tərsinə,
Əqidəmi heç nəyə dəyişmərəm mən yenə.

Bəxtiyar VAHABZADƏ

Ramiz MƏMMƏDOV

UTANIRAM

Axşam saatları idi. Yenə həmişəki kimi əmilərim və xatırlaya bilmədiyim ailə dostlarımızdan bir-iki nəfər evimizdə nənəmin samovar çayının ətrafında toplaşmışdılar. Bir yandan ətirli samovar çaylarını udumlarkən bir yandan da rayondakı hadisələrdən danışırdılar. O vaxt mənim 10 yaşım var idi. Tarix 1988-ci il idi. Söhbət hər zaman evimizdə çörəyimizi yeyən, çayımızı içən, amma sən demə, içlərində bizlərə düşmənçilik bəsləyən erməni quldurlarından gedirdi. Ağdamdan Şuşaya gedən avtobusları həmin mənfurlar yolda daşqalaq ediblərmiş. Hətta Xankəndində Qarabağın onlara aid olduğunu iddia edən nümayişlər də edirlərmiş. Atamgil bu işin sonunun müharibə ilə nəticələnəcəyini deyəndə uşaqlıq xəyallarım bir anda yox oldu. "Müharibə" sözü sanki çiyinlərimdə tonlarla ağırlıq hiss etdirdi. Yaxşı xatırlayıram; həmin günün sabahı heç oynamadım, heç gülmədim, elə hey bu haqda fikirləşdim. "Muharibə" sözü məni çox qorxutmuşdu. Bu hadisədən sonra tam 5 il daş-qalaqdan avtomat güllələrinə, avtomatlardan top və qradlara, hətta Xocalı faciəsinə qədər hər gün bir əvvəlki gündən daha betər günlər yaşadıq. Amma biz bütün bunlara baxmayaraq, Ağdam işğal olunan günə qədər ailəmizlə birlikdə doğma torpağımızı, ev-eşiyimizi tərk etmədik. Daha doğrusu, Ağdamın işqal oluna biləcəyini heç ağlımıza belə gətirmirdik. Hətta atam evimizin təmirini belə son günə qədər saxlamadı. Və nəhayət, 1993-cü ilin 23 iyulu dünyamızın qaraldığı gün oldu. Gözəl Ağdamımız əlləri uşaq, qadın, qoca qanına batmış nankorların kirli ayaqları altında qaldı.

O gündən indiyə qədər dəfələrlə sərhədə qədər gedib kəndimizə, oradakı görünə bilən ağaclara baxır, uzaqdan da olsa havasını udur və dərindən bir ah çəkirəm. İstər-istəməz başım xəcalətlə aşağı əyilir. Çünki bir erməni "dığa"sının məni doğma kəndimə həsrət qoyması ruhumu alçaldır. Ona görə alçaldır ki, həmin erməni "dığa"ları vaxtilə bizim çörəyimizlə yaşayırdılar. Bizim əlimizə baxırdılar. Bu gün həmin nankorların torpağımı alması, evimi dağıdıb qohum-qonşunu bir-birindən didərgin salması məni həddindən artıq utandırır. Fikirləşirəm, axı erməni bizə necə qalib gəldi? Bu məğlubiyyətdən qurtulmaq üçün nə etməliyik? Bu utancaqlıqdan qurtulmanın yolu nədir? Bir yandan bunları fikirləşəndə, bir yandan da hələ də bu vəziyyəti özümə ar bildiyimə görə Allaha şükür edirəm. Şükür edirəm ona görə ki, bu məğlubiyyətə layiq olmadığımızı dərk edirəm. Şükür edirəm ona görə ki, insana aid olan torpaq sevgisi, utanc duyğusu hələ də məndə var. Bu vəziyyətdən utanc duymağım isə Ağdam, ümumiyyətlə Qarabağın hələ də yaddaşımda təzə olduğunu və oraları unutmadığımı göstərir. Bu təzəlik isə mənə biz nə vaxtsa doğma yurdumuzu yağı tapdağı altından xilas edəcəyimiz ümidini verir. Və hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı da ən az mənim keçirtdiyim hissi keçirdir. Keçirmirsə əgər onda o adama "azərbaycanlıyam" sözü haram olmalıdır. Burada Allah dostlarından birinin sözünü demək tam yerində olar: "Din vətəndə yaşanar, bayraq vətəndə dalğalanar və namus vətəndə qorunar".

Allah bu utancla yaşamağı bizə çox görməsin və tezliklə vətənin alınmış ərazilərində bayrağımızı dalğalandırmağı nəsib etsin. Amin!

İsmayıl VƏLİYEV
valiyev1@gmail.com

Hədəfin üçün də bir hədəf seç:

DNB ol!

Yəqin ki, ilk diqqətini çəkən "hədəf" sözü oldu və sonra da daha maraqlı bir şey, hansı ki, hədəfi də unutdurdu. Bu, DNB-dir bilirəm. Bu nədir dedin və başladın bu məqaləni oxumağa.

DNB nədir? DNB (D-dünyada, N-nömrə, B-bir) dünyada nömrə bir olmaq deməkdir. Dünyada seçdiyin sahə üzrə bir nömrəli mütəxəssis olmağı hədəfləməkdir. Bəlkə də deyirsən ki, bu nəyə lazımdır axı, yaşayıram də həyatımı, hər şey normaldır. Bu düşüncə ağlına gələ bilər və gəlməsi də normaldır. Əgər belədirsə, o zaman bu məqaləni də heç oxuma, elə burada yarımçıq saxla və get normal həyatını yaşamağa davam et. Amma hələ də oxuyursansa və bura kimi gəlmisənsə, o zaman təklifim budur ki, bura kimi oxudun, burada yarımçıq saxlama. Davam elə, bəlkə irəlidə oxuyacaqların arasından sənə elə bir fikir gələcək, elə bir sözə və ya cümləyə rast gələcəksən ki, yaxşı ki, oxudum deyəcəksən. Ya da tam əksini, Allah bilir. Oxu görək nə olacaq.

DNB olmaq bir yana dursun, bəlkə heç doğru-düzgün hədəfin də yoxdur. Yəqin indi "doğru-düzgün hədəf necə olur ki, var da hədəflərim: bunu istəyirəm, onu istəyirəm, arzulayıram" və s. deyirsən, amma bunlar heç biri hədəf deyil. İnanmırsansa sənə sübut. Dünən ya da bir neçə gün, bir həftə əvvəl istədiklərin çox şey vardı, amma indi onlar heç yadına da düşmür. Bu gün istədiklərin, arzuladıqların, xəyalında canlandırdıqların da bir müddət sonra belə olacaq. Amma hədəf fərqlidir. Hədəf yazılmış olur ilk öncə. Sonra planların, strategiyan olur o hədəfə çatmaq üçün, atacağın addımları, edəcəyin seçimləri, verəcəyin qərarları, tanış olacağın, görüşəcəyin, biznes münasibətləri quracağın insanları təyin edirsən. Daha sonra bir vaxtı da olur hədəfinin. Yəni nə vaxt bu hədəfinə çatacağını göstərən bir tarix. Və hədəfdən asılı olaraq dəyişən bir çox digər önəmli xüsuslar.

İndi daha yaxşı anlamalı olmalısan ki istəklər, arzular və xəyallar hədəf deyil. Bunlar arsında ciddi fərqlər var.

İndi hədəfin yoxdursa, DNB haqqında danışmağa dəyməz. Amma bəlkə də bunun möhtəşəmliyi səni dəqiq bir hədəf

seçməyə, ya da hansısa zehnindəki xəyalı, ürəyindəki arzunu konkretləşdirməyə və onu bir real hədəfə çevirməyə səbəb olar.

Bir anlıq düşün, tam bugünkü gündən 10 il keçib və sən seçdiyin sahədə həqiqətən də dünyanın nömrə biri olmusan, ya da dünyadaki ən məşhur, tanınan ən uğurlu insanlardan biri. Bu halda həyatının necə olacağını düşün. Münasibətlərinin səviyyəsini və keyfiyyətini düşün, həyat tərzin necə olacaq bir anlıq zehnində canlandır.

İndi isə düşün ki, hədəf də seçmədin, DNB olmağı da. Normal həyatını yaşayırsan və artıq 10 il keçib. Bu həyatınla onun arasında artan yaşın, dizlərində duz və revmatizma ağrıları, gözlərindəki zəiflik, bədənin gücsüzləşməsi və edəcəyin çox şey olmadığına, həyatında artıq ciddi dəyişikliklər edə bilməyəcəyinə inanmısan və bunu qəbul etmisən. Artıq daha çoxunu edə biləcəyini, daha çoxunun mümkün ola biləcəyini bildiyin halda könüllü mövcud şərtlərə boyun əyib təslim olmusan. Halını soruşanlara saxta təbəssümlə yaxşı olduğunu deyirsən, amma müntəzəm olaraq da içində özünü suçlayırsan. Bu məqaləni oxuduğun bu günü xatırlayırsan və məhz orada o anda verəcəyin fərqli bir qərarla özünün həyatını tamam fərqli bir yerə gətirə bilmiş olacağının mümkünlüyünü, amma bunu məhz sənin etmədiyini sənə pıçıldayan o daxili səsinin, səssiz hayqırışları qarşısında artıq çox gec olan bir peşmaçılığı yaşayır, səssizcə və həsrətlə dərindən köks ötürürsən.

Ya da ki azad seçimin ola bilər və DNB olmağı özünə hədəf kimi seçməzsən və normal həyatını yaşamağa davam edərsən və bu seçimini şüurlu sürətdə etdiyindən heç peşmaçılıq da duymazsan .

Bir anlıq bunların hər birini düşün, özünü o yaşda, o yerdə o anda düşün və bax gör hansını seçmiş olmağı istəyərdin? İndi onu seç ki, sonra mənasız yerə "kaş ki" deməyəsən.

Sadəcə anlıq bir həvəsə görə bir hədəf seçirsənsə, sənin də o hədəfin üçün edə biləcəklərinin miqdarı o həvəsin getdiyi, yox olduğu ana qədər olacaq ki, ən çox itirdiklərimiz arasında da həvəslərimiz ilk sıralarda yer alır. Bu gün varlar, sabah yox.

DNB olmaq üçün etməli olduğun ən önəmli şey bunu deməkdir. Bunu ən inandırıcı, ən qəti, ən ciddi şəkildə özünə deməyin bu işin həm başlanğıcı həm də sonudur.

İstədiklərimizə, planladıqlarımıza çatmamanın, onları əldə edə bilməməyin ən önəmli səbəblərindən biri bu hədəflərimizdə ciddi olmamağımız, ikincisi isə bunları niyə istədiklərimizə tutarlı bir cavabımızın olmamasıdır. Nitşe "niyəsi olan necəsinə qatlanar" deyərkən də bu tutarlı səbəbi vurğulayırdı.

Sadəcə anlıq bir həvəsə görə bir hədəf seçirsənsə, sənin də o hədəfin üçün edə biləcəklərinin miqdarı o həvəsin getdiyi, yox olduğu ana qədər olacaq ki, ən çox itirdiklərimiz arasında da həvəslərimiz ilk sıralarda yer alır. Bu gün varlar, sabah yox.

Uğurlu insanları uğursuz olanlardan ayıran o əsas səbəbi bilirsən yəqin! Uğurlu insanlar da uğursuz insanların etməkdən xoşları gəlmədikləri şeyləri etməyi xoşlamırlar, amma bunu etməyi istəsələr də, istəməsələr də edirlər və bu ən önəmli səbəbdən dolayı da uğurlu olurlar. Bunu etmələrini təmin edən əsas faktor isə onların niyəsinin digərlərinkindən daha ciddi və güclü olmasıdır.

Ülvi MƏMMƏDOV

ATA HƏDİYYƏSİ

Altı yaşlı qızı atasından soruşur:

- Ata, mən nə vaxt böyüyəcəyəm?

Ata:

- 18 yaşın olanda, qızım!

Qız:

- 18 yaşım olanda mənə nə alacaqsan?

Ata:

- Hələ çoooox var ona, 18 olsun, baxarıq.

Qızın 17 yaşında ürəyində qüsur olduğu ortaya çıxır. Xəstəxanaya gətirilir… Həkimlər atasına qızının vəziyyətinin ağır olduğunu deyirlər. Atası qızının yanına gəlir.

Qız:

- Mən yaşamayacağam, ata? Böyüməyəcəyəm?

Ata heç nə demir və başını aşağı salır… Uzun illər 18 yaşının tamam olmasını gözləyən qızı məyus, atanınsa qəlbi qan ağlayır…

Qızı əməliyyat edirlər və o sağalır. Sən demə həmin gün qızın 18 yaşı tamam olurmuş. Qız əməliyyatdan sonra ayılır, yorğanının üstünə qoyulmuş bir kağız parçası görür və götürüb oxuyur…

"Sən 18 yaşımda mənə nə hədiyyə edəcəksən", -demişdin. Mən sənə öz ürəyimi hədiyyə etdim, qızım. Ad günün mübarək!"

BƏXŞİŞ

Yaşlı adam gəncin cibinə nə isə qoyub:

"Allah səndən razı olsun, oğlum! Bu qocanı o qədər sevindirdin ki, sanki yenidən doğuldum. Bu kiçicik hədiyyəmi də qəbul etsən, lap sevinərəm", -dedi.

Gənc oğlan etdiyi yaxşılığın yüksək səviyyədə qarşılanacağını əvvəlcədən hiss etmişdi. Yolun kənarında ağlayan dörd-beş yaşlı uşağın azdığını öyrənmiş və onun yaşadığı məhəllənin yerini soruşaraq taksi ilə evlərinə gətirmişdi.

Lakin axtardığı evi tapanda böyük xəyal qırıqlığına uğradı. Yol uzunu gözünün önündə canlandırdığı hovuzlu villa görmə xəyalları bir anda puç olmuşdu. Üstəlik qapını da azyaşlı uşağın babası açmışdı. Nəvəsini bağrına basıb, onu gətirən gəncə də təşəkkür edib cibinə bir neçə qəpik-quruş qoymuşdu.

Söhbət əsnasında uşağın ata-anasının avtomobil qəzasında vəfat etdiyini öyrənmiş və qocanın bir ara ağlayaraq fikirli halda uzaqlara dalmasından istifadə edərək cibindəkiləri əli ilə yoxlamışdı. Bir neçə qəpik-quruş düşmüşdü payına. Pencəyinin cibini belə doldurmurdu.

Evə baxanda yaşlı adamın kasıb olduğu məlum idi, amma ən azından taksi pulu da olsa verməli idi. "İnsaf da yaxşı şeydir" deyə düşündü.

Yaxşı hədiyyə ilə evə qayıtmağın xəyalını quran gənc xəsis bir qoca ilə qarşıqarşıya idi və ona dərsini verməli idi. Yaşlı

adamın üzünə dimdik baxaraq cibindəki qəpik-quruşu ovcuna aldı və uşağın ayaqlarının altına ataraq belə dedi:

"Balaca, get bu pullarla özünə oyuncaq al, bəlkə beləliklə səxavətin nə olduğunu da öyrənərsən".

Uşaq əyilib yerdəki pulları yığarkən az qala gəncin gözləri hədəqəsindən çıxacaqdı. Uşağın kiçik ovuclarında dörd-beş qızıl medalyol parıldayırdı…

BİR STƏKAN SÜD

Xalid yoxsul bir ailədə böyümüşdü. Məktəb xərclərini qarşılamaq üçün qapı-qapı gəzərək səyyar satıcılıqla məşğul idi.

O gün heç nə sata bilməmişdi. Aclıq səbəbilə də taqətdən düşmüşdü. Döyəcəyi ilk qapıdan yeməyə nə isə istəmək qərarına gəlmişdi. Qapını açan gənc qadını görüb utandı. Yeməyə nə isə istəmək yerinə:

- Üzr istəyirəm, bir stəkan su verə bilərsinizmi, çox susamışam, -dedi.

Gənc qadın uşağın ac ola biləcəyini düşünərək böyük bir stəkanla süd gətirdi. Zavallı uşaq aramla südü içdikdən sonra:

- Təşəkkür edirəm, borcum nə qədərdir? –deyə soruşdu.

Gənc qadın gülümsəyərək bu cavabı verdi:

"Heç nə qədər. Anam bizə etdiyimiz bir yaxşılığın əvəzinə nə isə almamağı öyrətdi".

Uşaq təşəkkür edib oradan ayrıldı. Xalid özünü sadəcə fiziki olaraq deyil, eyni zamanda mənəvi olaraq da gümrah hiss edirdi.

Aradan uzun illər keçdikdən sonra gənc qadın nadir rastlanan amansız bir xəstəliyə tutulmuşdu. Yaşadığı qəsəbədə işləyən həkimlər xəstəliyin çarəsini tapa bilməyib onu paytaxta göndərdilər.

Xalid yeni gələn xəstəsinin hansı qəsəbədən olduğunu öyrəndikdə çox həyəcanlandı. Artıq gənc olmasa da uzun illər bundan əvvəl onu sevgiylə qarşılayan qadını görən kimi tanıdı. Həyatını qurtarmaq üçün əlindən gələni əsirgəmədi.

Uzun müddət davam edən müalicədən sonra qadın sağlamlığına qovuşdu. Dr. Xalid təsdiqləmək üçün otağına gətirilən faturaya göz atdı və üzərinə bir neçə söz yazaraq zərfin içinə qoyub xəstə qadının otağına göndərdi.

Qadın titrək əllərlə zərfi aldı. Açmağa qorxurdu…

Xəstəxana məsrəflərini əsla ödəyə bilməyəcəyini və ömrünün geri qalan hissəsini borcunu ödəmək üçün işləyəcəyini bilirdi. Nəhayət, qorxa-qorxa da olsa, zərfi açdı və yazılmış bir kağız gördü:

"Bütün xəstəxana xərcləri bir stəkan süd qarşılığında ödənmişdir".

Anar QURBANOV
akurban78@hotmail.com

Sual Cavab

1. Sual: ***Bir müsəlman əgər müharibə zamanı atılmış mərmi nəticəsində və ya hansısa səbəbdən bütün yoldaşlarını itirər, tək qalıb əsir düşmə təhlükəsi yaranarsa və yeganə çıxış yolu özünü öldürmək olarsa, bunu etmək günahdırmı?***

Cavab: İslam dinində müxtəlif ayə və hədislərlə intihar etmək qətiyyətlə qadağan edilmiş və böyük günahlardan sayılmışdır. Eyni zamanda intihar qadağan edilərkən səbəbindən asılı olmayaraq qadağan edilmiş və heç vəchlə hər hansı zərurətdən dolayı intihar etməyin caizliyinə dair istisna qeyd edilməmişdir. Əksinə, müharibədə çox dərin yara alan bir müsəlmanın bu ağrıya dözmədiyi üçün özünü öldürməsi müqabilində Hz. Peyğəmbər (s.ə.s) onun cəhənnəmlik olduğunu bildirmişdir (bax. Buxari, Cihad və Siyər, 230).

Odur ki, əsir düşməklə işgəncələrə və təcavüzə məruz qalacağını bilən hər hansı bir müsəlmanın özünü və ya yaxınlarını öldürməsi qətiyyətlə caiz deyil. Vurğulamaq lazımdır ki, təcavüzə məruz qalan hər hansı günah işləmiş olmur, eyni zamanda düşmən tərəfindən öldürülən də şəhid olur. Məhz bu səbəbdən sıxıntılara sinə gərmək, işgəncələrə və digər əziyyətlərə qarşı səbir etmək, nə qədər pis şərait olursa olsun, Allaha olan inanc və etimadı itirməmək müsəlmanın əsas xarakteri və prinsipi olmalıdır. Üstəlik bu yolda göstərilən səbir, mətanət və mübarizənin Allah dərgahında böyük mükafatı və qiyməti vardır. Qurani-Kərimdə həyatda qarşılaşılan sıxıntı və problemlərin bir sınaq olduğu müxtəlif ayələrdə vurğulanır.

Nəticə etibarilə, inanan insanın vəzifəsi qarşı-qarşıya qaldığı bu kimi hallara səbir etməkdir. İnsan səbəbindən asılı olmayaraq Allahın buyurduğu vaxta qədər səbirli olmalı və Allah-Təalanın muradına görə bu dünyadan köçməlidir. Yəni, insan ölərkən də Allahın istəyinə tabe olmalıdır. Qurani-Kərimdə: **"Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda** (müsəlman kimi) **ölün!"** (Ali-İmran, 3/102) ayəsində insanın öz canına qıymamasının vacibliyinə işarə edilir. Çünki intihar Allaha təslim olmamağın bir nəticəsidir. Halbuki ayədə "Allaha təslim olmaqdan başqa bir halda, vəziyyətdə" ölmək qəti qadağan olunur.

2. Sual: ***Mücadilə surəsinin 22-ci ayəsinə görə (Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər) əgər yaxınlarımız və ailəmizin Allaha imanında ayədə qeyd olunduğu kimi düşmən olan kimsələr varsa, onlara qarşı davranışlarımız hansı müstəvidə olmalıdır?***

Cavab: Yuxarıda qeyd olunan ayə ilə yanaşı ana-ata və yaxınlarla yaxşı rəftar edib onlara qarşı sevgi bəsləyərək şəfqət qanadları altına almağı buyuran ayələri düşündükdə (bu ayələrin heç birində onların mömin olması şərti qoşulmamışdır), sözügedən ayədən mömin olmayan yaxınlarla hər cür münasibəti kəsməyin lazımlığı kimi bir mənanın çıxarılması qeyri-mümkündür. Belə olan təqdirdə həm bu ayədə, həm də digər ayələrdə inkarçı da olsalar İslama və müsəlmanlara zərər verməyən, onlara sevgi və hörmət göstərən insanlara qarşı yaxşı rəftar etməyə və adil davranmağa mane olan hər hansı məna yoxdur.

Bu ayə Allah və Rəsuluna dəşmənçilik edənlərin qohumluq əlaqəsi kimi hallardan istifadə edərək möminlərlə (münafiqlərin yəhudilərlə etdiyi əməkdaşlıq kimi) əməkdaşlıq etməyə səy göstərmələri təhlükəsinə qarşı xəbərdarlıq mahiyyətini daşıyır. Quran-Kərimin nazil olduğu dövrdə müsəlmanlar digər din mənsubları ilə, xüsusilə də bütpərəstlərlə müxtəlif münasibətlər qurduqlarından bu mövzu ilə bağlı ayələrdə üslub və məzmun fərqliliyinin olması təbiidir. Ona görə də bu mövzuda düzgün nəticəyə gələ bilmək üçün, müsəlmanların qeyri-müsəlmanlarla münasibətlərini nizamlayan digər ayələri və Rəsulullahın (s.ə.s) tətbiqatını (icraatlarını) bütövlüklə nəzərdən keçirmək lazımdır. Bütün bunlar nəzərdən keçirildikdə, dəlillərin aşağıda qeyd olunacaq iki nöqtədə, həm də fikir ayrılığına yol verməyəcək dərəcədə açıq-aydın olduğu nəzərə çarpır.

1. Səbəbindən asılı olmayaraq bir müsəlmanın öz əqidəsindən güzəşdə gedərək müsəlman olmayana əqidə baxımından yaxınlıq etməsi, onlara "inanc" yönündən sevgi bəsləməsi, yaxud onlarla məhz inanc nöqteyi-nəzərindən dostluq etməsi öz imanını təhlükə altında qoymaq deməkdir (burada qeyd edilən sevginin "dini dözümlülük"lə heç bir əlaqəsi yoxdur).

2. İnanclara xələl gələcək şəkildə olmadan İslamın insana baxışını göstərən nümunəvi davranışlar nümayiş etdirmək, dünya həyatının nizam-intizamını, bərqərarlığını təmin etmək və ümumi faydalı məsləhətləri qoruyub inkişaf etdirmək məqsədilə müsəlmanların qeyri-müsəlmanlarla müsbət münasibətlər qurması qadağan edilməyib, əksinə təşviq edilmişdir. Odur ki, qadağan edilən dostluq "inanc birliyi və yaxınlığı baxımından sevgi bəsləmək, etimad etmək və bel bağlamaq"dır. Yəni qadağa qoyulan münasibətlər İslam inancına sədaqəti hər şeyin fövqündə tutmadan zəiflik göstərərək imanı təhlükə qarşısında qoyan və ya müsəlmanların əleyhinə olan dostluqların qurulmasıdır.

Bundan əlavə, Hz. Peyğəmbərin (s.ə.s) peyğəmbərliyindən əvvəlki dövrdə şəriki olan Saib ibn Abdullahı cahiliyyə dövründəki fəzilətli davranışlarından ötrü tərifləməsi, gəncliyində Məkkədə baş verən haqsızlıqların qarşısının alınması məqsədilə təsis edilən "hilfül-füzul" təşkilatının üzvü olması və peyğəmbərlik dövründə də bundan məmnuniyyətlə bəhs etməsi, ən önəmlisi, "Ənbiya" surəsinin 107-ci ayəsində Hz. Məhəmmədin (s.ə.s) bütün məxluqata "rəhmət" olaraq göndərilməsinin bildirilməsi göstərir ki, İslamiyyət digər din mənsubları ilə əlaqə qurmaq, sülh və əmin-amanlıq içində yaşamanın yollarını inkişaf etdirməyi və ilahi bir lütflə insanın fitrətində olan əxlaqi fəzilətləri bəşəriyyətin ən ali dəyərləri hesab edib onları ucaltmağı nəinki qadağan edir, hətta bunun İslam mesajını bütün insanlara çatdırmaq (təbliğ) vəzifəsinin bir hissəsi olduğunu qəbul etmişdir.

Vurğulamaq lazımdır ki, bu və ya digər şəkildəki münasibətlər Quran və Sünnədəki digər dəlillər işığında tədqiq edildikdə müsəlmanların öz kimliklərini itirməsi, nəticə etibarilə, inancın itirilməsinə yol verəcək münasibətlər qurması və ya müstəqilliklərini əldən verməyə razı olması mənasına gəlmir.

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

Sahibinə layiq hədiyyə

Dostlarından biri Hz. Yusifi ziyarətə gəldi və bir müddət oturub söhbət etdilər. Hz. Yusif başından keçənləri, quyuda ikən çəkdiyi çətinlikləri dilə gətirdi. Uzun müddət danışıb dərdləşdilər. Söhbətin sonunda Hz. Yusif qonağına:

"Söylə görüm mənə nə hədiyyə gətirdin, çünki dostun evinə əliboş gedilməz", -dedi.

Qonaq kədərlənərək üzr bəyan etdi:

"Sənə gətirmək üçün hər nəyə baxdımsa, heç birini bəyənə bilmədim, layiq görmədim. Bir qızıl zərrəsi alınıb qızıl mədəninə, bir damlacıq su okeana hədiyyə aparılarmı? Sənə könlümü və canımı hədiyyə olaraq gətirsəm belə sanki Hindistana ədviyyat satmağa aparmış olaram.

Sənin gözəlliyinə layiq bir hədiyyə tapmaq çox çətin oldu. Lakin sonunda sənə bir güzgü gətirməyə qərar verdim, ona baxdıqca günəş kimi parlayan gözəl üzünü görər, sevinər, məni xatırlayarsan", dedi və gətirdiyi güzgünü çıxararaq Hz. Yusifə təqdim etdi.

Hz. Yusif bu hədiyyəyə çox sevindi.

Varlığın güzgüsü yoxluqdur, axmaq deyilsənsə yoxluğu seç.

İmamın sərxoş qonşusu

İmam Əzəm həzrətlərinin gənc bir qonşusu vardı.

Hər gecə evinə içkili gəlir, çıxardığı səs-küy ilə imamı çox narahat edirdi. İmam heç vaxt gəncdən şikayətçi olmaz, qonşusunun halına dözərdi. Bir gün başqalarının şikayəti səbəbilə gənci həbsə atdılar. Ertəsi gecə gəncin səsini eşitməyən Əbu Hənifə (r.a.) təəccübləndi və:

- Gənc qonşumuzun səsi nə üçün qulağımıza gəlmir?, -deyə soruşdu.
- Əfəndim, o sərxoşu vali həbsə atdırdı, -dedilər.

Ertəsi səhər düz valinin evinə getdi. Tələbələri düşünürdülər ki, müəllimimiz hər halda valiyə təşəkkür edəcək. Vali onu görən kimi ayağa qalxdı. Hörmət etdi və:

- Ya imam! Təşriflərinizin səbəbini lütfən söyləyərsinizmi? dedi.

O da qonşusu olan gəncin sərbəst buraxılmasını xahiş etdi. Vali:

- Əfəndim,

Onlar heç kimi özlərindən uzaqlaşdırmır, qınamır, günahlandırmır, bəlkə yalnız özünə zülm edən yazıqların halına acıyır və kömək etməyə çalışırdılar. Başqası nə edirsə etsin, onlar özlərinə düşəni edirdilər.

belə əhəmiyyətsiz bir məsələ üçün niyə zəhmət çəkdiniz? Xəbər göndərsəydiniz əmriniz dərhal yerinə yetirilərdi, cavabını verdi.

Cavan sərbəst buraxıldı. İmamla qarşılaşdıqlarında olduqca xəcalətli idi. Özünü şəxsən çox narahat etmişdi. Əbu Hənifə:

- Bax biz səni unutmuruq, sözləriylə iltifat buyurdu.

Gənc qısa zaman sonra tövbə etdi və imamın tələbələri arasında qatıldı.

Cənnət köşklərinin haqqı

Hz. Ənəs (r.ə) rəvayət edir:

- Rəsulullah (s.ə.s) ilə birlikdə idik. Birdən azı dişləri görüləcək şəkildə gülümsədi. Səbəbini soruşduğumuzda belə buyurdu:

- Ümmətimdən iki adam Allahın hüzuruna gələrlər. Biri,

- Ya Rəbb, mənim bunda haqqım var. Haqqımı bundan al, mənə ver, deyər. Allah Təala da o birinə;

- Haqqını ver, -buyurar. Adam,

- Ya Rəb, məndə savab adına bir şey qalmadı, deyər. Allah:

- Bax, bu adamın savabı qalmadı, nə deyirsən? buyurar. Adamcığaz:

- O halda mənim günahlarımdan alsın, deyər. Rəsulullah (s.ə.s) bunu danışarkən gözləri yaşardı və: "O gün böyük bir gündür. İnsan günahının alınmasını istəyər", -dedi. Bunun üzərinə Allah-Təala haqq sahibinə,

- Başını qaldır və cənnətə bax, buyurar. Adamcığaz:

- Ya Rəbb, inci ilə işlənmiş, gümüşdən mənzillər və qızıldan köşklər görürəm. Bunlar hansı peyğəmbər, hansı siddiq və ya hansı şəhid üçündür?, -deyər. Allah Təala:

- Bunlar mənə haqqını verənlər üçündür, -buyurar. Adamcığaz:

- Bunların haqqını kim ödəyə bilər?, -deyər. Allah (c.c):

- Sən istəsən bunlara sahib ola bilərsən, buyurar. Adam:

- Necə olar, ya Rəbb? Dedikdə Allah:

- Haqqını bu adama bağışlamaqla, -buyurar. Adam:

- O halda mən bunu bağışladım, -deyər. Allah zül-Cəlal həzrətləri də:

- Yoldaşını götür, birlikdə cənnətə girin, -buyurar.

Sonra Rəsulullah (s.ə.s) buyurdu:

"- Allahdan qorxun, Allahdan qorxun və siz də öz aranızı düzəldin. Baxın, Allah özü şəxsən möminləri barışdırır."

Olmert “Mavi Mərmərə” olayı ilə bağlı açıqlama verdi

İsrailin keçmiş baş naziri Ehud Olmert ölkəsinin “Mavi Mərmərə” gəmisinə basqını ilə bağlı deyib: “Əgər baş nazir olsa idim, mülki insanların ölümünə görə Türkiyənin baş naziri Ərdoğandan və türk xalqından üzr istəyərdim”.

“Habertürk”-ün verdiyi məlumata görə, o, Tel-Əvivdə vəkillərin həmkarlar təşkilatının konfransında daha sonra deyib: “Olaydan iki gün sonra hökumətlə uzlaşmaq üçün əlaqəyə keçərdim”.

Xatırladaq ki, Qəzzaya insani yardım aparan “Mavi Mərmərə” gəmisinə 31 may 2010-cu ildə İsrail hərbi birləşmələri beynəlxalq sularda müdaxilə etmiş və nəticədə 9 türk vətəndaşı şəhid olmuş, bir çox insan müxtəlif xəsarətlər almışdır.

Qorbaçov "müsəlmanlara qarşı səhv etdik" dedi

14.12. 2012-ci il tarixində Şişli Bələdiyyəsinin ev sahibliyi ilə təşkil olunan “Ortadoğu və Aralıq dənizinin Gələcəyi” başlıqlı toplantıda keçmiş SSRİ-nin dövlət başçısı Mixail Qorbaçovun bolşeviklərin İslam dünyasına qarşı yürütdükləri siyasətin doğru olmadığını etiraf edib.

Hilton Otelində təşkil olunmuş toplantıda açılış nitqi söyləyən Qorbaçov Orta Şərqdəki və Suriyadakı hadisələri doğru analiz edə bilməyən politikaçıların böyük səhvə yol verdiklərini qeyd etdi. “Böyük bir fəlakətin qapıda olduğunu” xəbər verən Qorbaçov Sovetlər Birliyinin İslam dünyasına və müsəlmanlara qarşı səhv mövqedən hərəkət etdiyini də etiraf edərək bunları söylədi: “Sovetlər Birliyində 20 milyondan artıq müsəlman vardı. Təəssüflər olsun ki, bolşeviklər bir çox qəbuledilməz hərəkətlər etdilər, mədəni və dini xəzinələrimizi yox etdilər. Biz bu səhvlərin əvəzini ağır ödədik. Soyuq Müharibə illərində yanlış olaraq din faktorundan qrupların mənfəəti üçün istifadə olundu”.

“Sən tək deyilsən” adlı xeyriyyə tədbiri keçirildi

07. 12. 2012-ci il tarixində “Beynəlxalq Əlillər Günü” münasibətilə Gəncliyə Yardım Fondunda “Sən tək deyilsən” adlı xeyriyyə tədbiri keçirilib.

Gəncliyə Yardım Fondu və Türkiyənin İstanbul Beynəlxalq Qardaşlıq və Yardımlaşma Dərnəyinin Azərbaycan Nümayəndəliyi Azərbaycan Respublikası Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının rəhbərliyi altında **Beynəlxalq Əlillər Günü** münasibətilə **“Sən tək deyilsən”** devizi altında qayğıya möhtac insanlarla görüş keçirilib.

Tədbiri açıq elan edən Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim tədbirdə bildirib ki, dünyada yaşayan əlillərin dərdlərini, hisslərini bölüşmək hər kəsin vətəndaşlıq borcudur.

Görüşdə Prezidentin İcra Aparatı ictimai-siyasi məsələlər şöbəsinin məsul işçisi cənab Rasim Mirzəyev, Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin problemləri və miqrasiya şöbəsinin məsləhətçisi Abil Qədirov, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Vüqar Nəsibov, Millət vəkilləri Fazil Qəzənfəroğlu, Sevinc Hüseynova, Etibar Hüseynov, Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda Cəmiyyətinin sədri cənab Davud Rəhimov, Gözdən Əlillər cəmiyyətinin sədri cənab Səmyar Abdullayev və Qarabağ Seyid Ocaqlarının sədri Seyid Camal Əzimbəyli çıxış edərək əlillərə qarşı göstərilən dövlət qayğısından danışmışlar.

Görüşün sonunda ***“20 əlilə əlil arabası”, “50 əlilə əlil ağacı”*** və ***“50 gözdən əlilə əlil çəliyi”*** verilib. Tədbirdə hökümət, QHT və KİV nümayəndələri də iştirak ediblər.

GYF Gənclər Təşkilatlarının IV Respublika sərgisində fəal təmsil olunub

Ötən il “Bakı Ekspo” sərgi kompleksində üç gün davam edən Gənclər Təşkilatlarının IV Respublika sərgisi 30 noyabr tarixində öz işini yekunlaşdırıb. Sərgidə 76 gənclər təşkilatı iştirak edərək öz fəaliyyətləri barədə sərgi ziyarətçilərini məlumatlandırıblar.

Gəncliyə Yardım Fondu da sərgidə ən fəal şəkildə təmsil olunub. Gəncliyə Yardım Fondunun pavilionunda ziyarətçilərə təşkilatın fəaliyyəti və həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verilib. Ziyarətçilər eyni zamanda yaxın gələcəyə planlaşdırılan layihələr barədə məlumatlandırılıblar.

Sərginin açılışında ölkə Prezidenti İlham Əliyev də iştirak edib. Eyni zamanda Gənclər və İdman naziri Azad Rəhimov və Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Gəncliyə Yardım Fondunun fəaliyyəti ilə yaxından tanış olublar və həyata keçirilən fəaliyyətləri yüksək qiymətləndiriblər.

qadın geyimləri

tuwa

HİCABLI QADIN GEYİMLƏRİNDƏ
BOL ÇEŞİD VƏ İNANILMAZ UCUZLUQ

İrfan Abunəçilərinə
Əlavə Endirimlər
Nəzərdə Tutulur!

Ünvan:
Binə Ticarət Mərkəzi
Sıra 7A, korpus 3,
mağaza 28 (keçid)

Tel:
(+ 994 55) 208 72 55
(+ 994 12) 408 40 43

manto
tunik
kostyum
yubka
şalvar